Demokratiya, güclü iqtisadiyyat - Dağlıq Qarabağın açarıdır!

DEMOKRATİK, MÜSTƏQİL QƏZET

# BAKI XƏBƏR

www.baki-xeber.com

16 AVQUST 2019-cu il

№ 142 (4040)

Qiyməti 40 qəpik

Həftədə 5 dəfə çıxır

Qəzet 2003-cü ildən nəşr olunur

# ERMƏNİSTAN RUSİYANIN AZƏRBAYCANA SİLAH SATIŞINA HEÇ CÜR MANE OLA BİLMƏDİ - ORDUMUZA SU-35-lər GƏLİR

■ səh. 5 ■

Azərbaycanda pensiyaların məbləğində hər il dəyişiklik olacaq - prosesi Prezident başlayıb

■ səh. 3 ■

Prezidentin özəl sektorda iş yerlərini artırmaq kursu üzrə proses yeni formalar alır...

■ səh. 3 ■

Azərbaycan Cəmmu və Kəşmir məsələsində rəsmi mövqeyini bir daha bəyan etdi

■ səh. 2 ■

Paşinyan Sarkisyanın iqtisadi-maliyyə oliqarxiyasının təsirindən çıxa bilmədi

■ səh. 7 ■

Neftin qiymət sıçrayışları gəlir - Azərbaycan neftdən daha çox qazanacaq

■ səh. 12 ■

Bakının Mərkəz adlı yeni rayonu - 4 rayon ləğv oluna bilərmi...

■ səh. 13 ■

İtkin düşən uşaqların sayı artır - azərbaycanlı uşaqların başına nə gəlir...

■ səh. 15 ■




## Son aylar ABŞ-Ermənistan münasibətlərində 3 böyük problem - sanksiya, maliyyə kəsintisi və dövlət rəhbərlərinə saymaz münasibət...

■ səh. 4 ■




ATƏT «kiçik Xədicə məsələsini» görür, Paşinyanın təcavüzkar bəyanatına isə hələ susur

■ səh. 9 ■

Sosial internet şəbəkələri saxta «qədim erməni dövlətçiliyi» barədə yalanlarla doludur

■ səh. 10 ■



Anormal bioloji varlıqdan şübhələnən kənd camaatı da ilk olaraq polisi köməyə çağırdı

■ səh. 11 ■

■ səh. 8-9 ■

Bakıdan Avropaya, oradan facebooka" qrant yolçuluğu" və "şorqapan müxalifətçiliyin" anatomiyası...



■ səh. 6 ■

Pakistan Kəşmir məsələsində Azərbaycandan rəsmi dəstək gözləyir...



■ səh. 4 ■

Avropa Birliyi ilə Rusiya-İran alyansı qarşısında "Transxəzər"i nə gözləyir...



■ səh. 13 ■

Nazirin təhsil haqları ilə bağlı universitetlərə tövsiyəsi tam yeni mərhələ aça bilər



■ səh. 14 ■

Azərbaycanın kənd təsərrüfatı hansı islahatlar hesabına dirçəlib?





### Azərbaycan Cəmmu və Kəşmir məsələsində rəsmi mövqeyini bir daha bəyan etdi

**Azərbaycanın Cəmmu və Kəşmir məsələsində mövqeyi ardıcıl xarakter daşıyır. Baki-xeber.com xəbər verir ki, bunu Xarici İşlər Nazirliyinin Mətbuat katibi Leyla Abdullayeva deyib.**

XİN rəsmisi bildirib ki, Azərbaycan Cəmmu və Kəşmir məsələsinin beynəlxalq hüququn norma və prinsiplərinə, BMT Təhlükəsizlik Şurasının müvafiq qətnamələrinin tələblərinə uyğun olaraq həllini dəstəkləyir: "Azərbaycan Respublikası İslam Əməkdaşlıq Təşkilatı çərçivəsində Cəmmu və Kəşmir məsələsi üzrə Kontakt qrupun üzvüdür. Bu günlərdə İƏT-in Ciddədə mənzil qərargahında Cəmmu və Kəşmir üzrə Kontakt qrupun iclası keçirilib".

### Dağlıq Qarabağın azərbaycanlı icması Avstraliya hökumətinə etiraz məktubu göndərib

**Azərbaycan Respublikası Dağlıq Qarabağ bölgəsinin azərbaycanlı icması Avstraliyanın bəzi rəsmilərinin ölkəmizin işğal olunmuş Dağlıq Qarabağ bölgəsindəki qanunsuz separatçı rejimin "üzvləri"nin səfəri və səfər çərçivəsində keçirilən görüşlə əlaqədar Avstraliya hökumətinə və qanunverici orqanına etiraz məktubu göndərib.**

İcmadan "Trend"ə verilən məlumata görə, məktubda bildirilir ki, qondarma rejimin üzvlərinin Avstraliyaya səfər etməsi birbaşa Avstraliya hökumətinin rəsmi mövqeyinə ziddir:

"Avstraliya hökuməti Azərbaycanın suverenliyi və ərazi bütövlüyünü dəstəklədiyini və bu mövqeyin dəyişməz olduğunu bəyan edib. Qeyd edirik ki, Ermənistanın Azərbaycana hərbi təcavüzü nəticəsində Dağlıq Qarabağda etnik təmizləmə aparılıb və yüz minlərlə soydaşımız öz torpaqlarından didərgin düşüb. Bu gün erməni diasporu Avstraliyada qondarma rejimi təbliğ edir və işğalın nəticələrini legitimləşdirməyə çalışır. Belə bir məqamda qondarma rejimin "üzvləri"nə bəzi Avstraliya rəsmiləri tərəfindən "xoş münasibət" göstərilməsini biz, Azərbaycan Respublikası Dağlıq Qarabağ bölgəsinin azərbaycanlı icması olaraq qəbuledilməz hesab edirik".

Məktubu Azərbaycan Respublikası Dağlıq Qarabağ bölgəsinin azərbaycanlı icmasının rəhbəri Tural Gəncəliyev, icmanın idarə heyətinin üzvləri Flora Qasımova, Asif Cahangirov, Elçin Əhmədov, Dürdanə Ağayeva, Xatirə Vəliyeva, Samirə Hüseynova, Nigar Mövsümlü və.s imzalayıb.

# Birinci vitse-prezident Mehriban Əliyeva Vladimir Putinə təşəkkür məktubu yazdı

**Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva Rusiya Federasiyasının Prezidenti Vladimir Putinə məktub ünvanlayıb.**



Məktubda deyilir: "Azərbaycanla Rusiya arasında dostluq münasibətlərinin inkişafı sahəsində fəaliyyətimə verdiyiniz yüksək qiymətə və Rusiya Federasiyasının ali fəxri mükafatına - "Dostluq" ordeninə görə Sizə səmimi qəlbdən təşəkkür edirəm.

Ölkələrimiz arasında münasibətlər bir çox sahələri əhatə edir. Bu münasibətlər strateji tərəfdaşlıq səviyyəsinə yüksəlib. Azərbaycan və Rusiyanın dövlətlərarası əməkdaşlığı çoxəsrlik təməl üzərində təşəkkül tapıb. Azərbaycan və Rusiya öz münasibətlərini sülh, qarşılıqlı hörmət və mehriban qonşuluq əsasında qururlar. Bizim dostluğumuz və səmərəli tərəfdaşlığımız ölkələrimizin və xalqlarımızın maraqlarına tam cavab verir, regionda sülhə və sabitliyə xidmət edir.

Hörmətli Vladimir Vladimiroviç, fəxri mükafata görə Sizə bir daha səmimi qəlbdən təşəkkür edirəm. Sizə möhkəm cansağlığı, xoşbəxtlik və uğurlar, Rusiya xalqına firavanlıq, sülh və tərəqqi arzulayıram".

# Qarabağın azərbaycanlı icmasından həmsədrlərə dəqiq mesaj - Paşinyanın ilhaqçı siyasətini pisləməkdə ləng mövqe tutursunuz...

**"Azərbaycan Respublikası Dağlıq Qarabağ bölgəsinin azərbaycanlı icması" Ermənistanın baş naziri Nikol Paşinyanın Azərbaycanın işğal altında olan ərazilərinə səfər etməsi və səfər zamanı səsləndirdiyi təxribatçı bəyanata etiraz olaraq ATƏT-in Minsk qrupunun həmsədrlərinə məktub ünvanlayıb.**



Məktubda deyilir:

"5 avqust 2019-cu ildə Ermənistanın baş naziri Nikol Paşinyan Azərbaycanın işğal altında olan ərazilərinə səfər edib, "Pan-Erməni-stan" oyunlarının açılışına qatılıb. Açılış "mərasim"ində Nikol Paşinyan təxribatçı bəyanatlar səsləndirərək Qarabağı Ermənistanın tərkib hissəsi adlandırıb. Ermənistan baş naziri bununla da Azərbaycan ərazilərinin ilhaq siyasəti yürütdüyünü təsdiq edir"- deyilən məktubda qeyd edilir ki, "Paşinyanın bu sayıqlamaları əslində Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həlli istiqamətində aparılan danışıqların ruhuna zidd olmaqla yanaşı, öz ata-baba yurdlarından didərgin düşmüş yüz minlərlə azərbaycanlının hiddətinə səbəb olub".

Etiraz məktubunda həmçinin bildirilir ki, XXI əsrdə ölkələrin beynəlxalq səviyyədə tanınmış sərhədlərinin güc yolu ilə dəyişdirilməsi qəbuledilməzdir: "N.Paşinyanın münaqişənin sülh yolu ilə həll edilməsinə dair fikirləri isə gözdən pərdə asmaqdan başqa bir şey deyil. Bu, Ermənistanın hərbi işğalını gizlətmək üçün uydurulmuş bəhanədir. Ermənistanın əsas məqsədi beynəlxalq ictimayyəti və ATƏT-in Minsk qrupunu aldatmaqdan ibarətdir. Paşinyan "Qarabağ Ermənistanın tərkib hissəsidir" deməklə ATƏT-in Minsk qrupunun vasitəçiliyi ilə gedən danışıqları zərbə altında qoyur və Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı danışıqlara bərpaedilməz zərər vurur. Ermənistan baş nazirinin fikirlərini bu ölkənin xarici işlər naziri də təsdiqləyib. Biz, Azərbaycan Respublikası Dağlıq Qarabağ bölgəsinin azərbaycanlı icmasının üzvləri, ATƏT-in Minsk qrupunu Ermənistanın baş naziri Nikol Paşinyanın bu ilhaqçı siyasətini pisləməyə çağırırıq".

Qeyd edək ki, bu məktub ATƏT-in Minsk qrupunun həmsədrləri ilə yanaşı, Minsk qrupunun digər üzv dövlətlərinə və qurumun Parlament Assambleyasına, BMT-nin baş katibinə, Avropa Şurası, Avropa İttifaqının müvafiq qurumlarına və digər beynəlxalq təşkilatların ünvanlarına göndərilib.

Məktubu Azərbaycan Respublikası Dağlıq Qarabağ bölgəsinin azərbaycanlı icmasının rəhbəri Tural Gəncəliyev, icmanın idarə heyətinin üzvləri Flora Qasımova, Asif Cahangirov, Dürdanə Ağayeva, Xatirə Vəliyeva, Samirə Hüseynova, Nigar Mövsümlü və s. imzalayıblar.

# Azərbaycan dənizçiləri ilk dəfə "Dəniz kuboku-2019" beynəlxalq yarışlarının qalibi olublar

**Azərbaycan "Beynəlxalq Ordu Oyunları-2019" çərçivəsində keçirilən "Dəniz kuboku-2019" beynəlxalq yarışlarının qalibi olub. Bu barədə Azərbaycan nümayəndə heyətinin rəhbəri Sübhan Bəkirov məlumat verib.**

"Müsabiqənin yekunları üzrə Azərbaycan komandası 212 balla birinci yeri tutub. Müsabiqə yüksək səviyyədə və dostluq mühitində keçirilib", - deyə o, bu gün mətbuat konfransında bildirib.

S.Bəkirovun sözlərinə görə, Rusiya 186 balla ikinci, Qazaxıstan 142 balla üçüncü, İran 136 balla dördüncü yeri tutub.

Azərbaycan nümayəndə heyətinin rəhbəri qeyd edib ki, müsabiqədə dostluq qalib gəlib. "Hesab edirəm ki, "Dəniz kuboku-2019" beynəlxalq yarışlarında iştirak etmiş ekipajlar terror və digər təhdidlərə qarşı mübarizə bacarıqlarını daha da təkmilləşdiriblər", - deyə o vurğulayıb.

Rusiya komandasının nümayəndəsi Sergey Yekimov yarışların gərgin keçdiyini deyib. "Bütün komandalar yüksək peşəkarlıq nümayiş etdirdilər. Əvvəlki illərlə müqayisədə bütün iştirakçılar daha yaxşı nəticələr göstərdilər. Azərbaycan komandası yüksək peşəkarlıq nümayiş etdirib", - deyə o vurğulayıb.

Qazaxıstan komandasının rəhbəri Kanat Niyazbekov qeyd edib ki, Azərbaycan dənizçiləri yüksək peşəkarlıqlarını ortaya qoyublar. "Mən müsabiqəni yüksək səviyyədə təşkil edən Azərbaycan tərəfinə təşəkkür edirəm", - deyə o əlavə edib.

İran nümayəndə heyətinin rəhbəri Hüseyn Həsəni isə deyib ki, qonşu ölkələr arasında bu cür proqramlar çox faydalı ola bilər. "Xəzər dənizinin təhlükəsizliyini yalnız Xəzəryanı ölkələr başqa dövlətlərin iştirakı olmadan təmin edə bilər", - deyə o vurğulayıb.

**Bakı Mühəndislik Universitetinin rektorluğu və Həmkarlar İttifaqı Komitəsi Azərbaycan Respublikası Təhsil nazirinin müavini Firudin Qurbanova qayınanası Raziyəxanım Quliyevanın vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər. Allah rəhmət eləsin!**

# Azərbaycanda pensiyaların məbləğində hər il dəyişiklik olacaq - prosesi Prezident başlayıb

**Məlum olduğu kimi, Prezident İlham Əliyev "Əmək pensiyaları haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Qanunun tətbiqi barədə Fərman imzalayıb. Fərmana əsasən, Azərbaycanda pensiya kapitalı ildə bir dəfə indeksləşdiriləcək.**



***Vüqar Bayramov:** "Əmək pensiyasının sığorta hissəsi ya inflyasiya səviyyəsinə, ya da əhalinin gəlirlərindəki artım faizinə indeksasiya olunmalıdır"*

Belə ki, sığortaolunanların fərdi hesabının sığorta hissəsində qeydə alınan pensiya kapitalı ildə bir dəfə Dövlət Statistika Komitəsi tərəfindən müəyyən olunan istehlak qiymətləri indeksinin illik səviyyəsinə uyğun olaraq, Azərbaycan Respublikasının Prezidentinin qərarına əsasən indeksləşdiriləcək.

Pensiya məbləğinin hər il indeksləşdirilməsi barədə fikir bildirən iqtisadçı-ekspert Vüqar Bayramov qeyd etdi ki, rəhbərlik etdiyi təşkilat ötən il əmək pensiyasının sığorta hissəsi və fərdi hesabın sığorta hissəsində qeydə alınan pensiya kapitalının qeyri-rəsmi məşğulluq səviyyəsini nəzərə alaraq, ölkə üzrə orta aylıq nominal əməkhaqqıdakı artım faizinə deyil, illik inflyasiya səviyyəsinə uyğunlaşdırılmasını təklif etmişdi: "Eyni zamanda, rəsmi illik inflyasiya dərəcəsinin hesablanması mexanizm və metodologiyasının təkmilləşdirilməsini vacib hesab edirik. Belə ki, bəzi illərdə, xüsusən də məzənnədə dəyişiklik baş verən zaman inflyasiya səviyyəsi daha yüksək olur. Nəticədə əmək pensiyasının sığorta hissəsi və fərdi hesabın sığorta hissəsində qeydə alınan pensiya kapitalı belə inflyasiya dərəcəsinə indeksasiya oluna bilmirdi. Təbii ki, bəzi illərdə nominal orta aylıq əməkhaqqıdakı artım inflyasiya səviyyəsindən çox ola bilər. Amma strateji olaraq inflyasiya səviyyəsi əməkhaqqı artımından daha çox olur və bu, indeksasiya məbləğinə təsir göstərir.

*"Yeni dəyişikliklərə görə, sığortaolunanların fərdi hesabının sığorta hissəsində qeydə alınan pensiya kapitalı..."*

Məsələn, 2017-ci ildə inflyasiya səviyyəsi 12.7 faiz, nominal orta aylıq əməkhaqqıda artım 5.7 faiz olub. Azərbaycan Prezidentinin "Əmək pensiyaları haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" imzaladığı Fərmana əsasən, qanunun "Əmək pensiyalarının indeksləşdirilməsi" ilə bağlı 29-cu maddəsinə dəyişiklik edilib. Belə ki, yeni dəyişikliklərə görə, sığortaolunanların fərdi hesabının sığorta hissəsində qeydə alınan pensiya kapitalı hər ilin əvvəli ilin inflyasiya səviyyəsində indeksasiya olunacaq. Məsələn, əgər pensiya kapitalında 10 min manat vəsait varsa və illik inflyasiya səviyyəsi 6 faizdirsə, o zaman həmin məbləğə 600 manat əlavə olunacaq".

Həmsöhbətimiz onu da vurğuladı ki, əmək pensiyasının sığorta hissəsi ya inflyasiya səviyyəsinə, ya da əhalinin gəlirlərindəki artım faizinə indeksasiya olunmalıdır. Eyni zamanda, inflyasiyanın hesablanması mexanizmi təkmilləşdirilməlidir: "Rəsmi inflyasiya dərəcəsinin real olaraq qəbul olunması çox vacibdir. Bu, indeksasiya məbləğinə birbaşa təsir göstərən meyardır".

*Günel CƏLİLOVA*

# Prezidentin özəl sektorda iş yerlərini artırmaq kursu üzrə proses yeni formalar alır...

**Azərbaycanda sahibkarlığın inkişafı, yeni müəssisələrin yaradılması və iş yerlərinin açılması siyasəti birbaşa insanların rifah halının yüksəlməsinə, yaşayış səviyyəsinin daha da yaxşılaşmasına səbəb olur. Müasir Azərbaycanın sürətli iqtisadi inkişafında, əhalinin rifah halının və yaşayış səviyyəsinin yüksəlməsində də mühüm rol oynayan faktorlardan biri də sahibkarlığın inkişafıdır.**



***Pərviz Heydərov:** "Təxmini hesablamalara görə, əmək bazarına il ərzində 100 min nəfər işçi daxil olmalıdır"*

Bu sahənin inkişaf etməsi üçün dövlət tərəfindən sahibkarlara hər cür şərait yaradılır.

Xatırladaq ki, Prezident İlham Əliyev iyulun 31-də sosial-iqtisadi sahə ilə bağlı müşavirədə çıxışı zamanı özəl sektorda daha çox iş yerinin yaradılmasının vacibliyi barədə fikir bildirmişdi. Prezident qeyd etmişdi ki, sosial sahədə əldə edilən uğurlar nəticəsində sahibkarlıq inkişaf edir: "Yeni iş yerləri açılır ki, vətəndaşlar işlə təmin olunsunlar. Ancaq hamımız yaxşı bilməliyik ki, özəl sektor iş yerlərinin yaradılmasına öz töhfəsini daha böyük həcmdə verməlidir. Özəl sektorun nümayəndələri ilə aparılan işlər nəticəsində biz bu sahədə də artım görürük. İqtisadi canlanma, əlbəttə ki, iş yerlərinin yaradılmasına da gətirib çıxarır. Çünki bu, daimi proses olmalıdır".

Bununla bağlı bu günlərdə İqtisadiyyat Nazirliyində geniş kollegial iclas keçirilib. Özəl sektorda daha çox iş yerlərinin yaradılması məsələsi müzakirə olunub.

İqtisadçı-ekspert Pərviz Heydərov "Bakı-Xəbər"ə açıqlamasında qeyd etdi ki, inkişaf etmiş ölkələrdə çalışan işçilərin əsas hissəsi özəl sektorun payına düşür: "Dövlət özəl sektora şərait yaratmalıdır ki, bu sahədə yeni iş yerlərinin sayı rübdən-rübə, ildən-ilə artsın. Amerikanın əsas makroiqtisadi göstəricilərindən biri il ərzində açılan iş yerlərinin sayının artmasıdır. Mütəmadi olaraq ölkədə açılan iş yerlərinin sayı artırsa, o zaman həmin yerdə iqtisadi artım qeydə alınır, bununla yanaşı, özəl sektorun inkişafı baş verir və iqtisadiyyatda dinamika yaranır. Əksi baş verərsə, bu, iqtisadiyyatda dolğunluqdan xəbər verir".

*"Mütəmadi olaraq ölkədə açılan iş yerlərinin sayı artırsa, o zaman həmin yerdə iqtisadi artım qeydə alınır, bununla yanaşı, özəl sektorun inkişafı baş verir və iqtisadiyyatda dinamika yaranır"*

Həmsöhbətimizin sözlərinə görə, dövlət başçısı İlham Əliyevin həyata keçirdiyi əsas vəzifələrdən biri hər il ölkədə yeni iş yerlərinin yaradılmasına üstünlük verilməsidir: "Təxmini hesablamalara görə, əmək bazarına il ərzində 100 min nəfər işçi daxil olmalıdır. İl ərzində 100 min işçinin əmək bazarına daxil olması üçün özəl sektorda yaradılan iş yerlərinin sayı artmalıdır. Əgər il ərzində azı 70-80 min işçi əmək bazarına daxil ola bilməzsə, bu hal ölkədə kəskin işsizliyin yaranmasına və iqtisadiyyatda durğunluq yaranmasına səbəb ola bilər.

**Bu səbəbdən işçilərin işlə təmin olunması əsas olaraq özəl sektorun üzərinə düşür. Bu sahədə sahibkarlara şərait yaradılır və yaradılmalıdır. Dövlətin əsas vəzifələri yeni istehsal sahələrinin yaradılmasına nail olmaq və bu sahəni stimullaşdırmaqdır".**

*Günel CƏLİLOVA*

# Son aylar ABŞ-Ermənistan münasibətlərində 3 böyük problem - sanksiya, maliyyə kəsintisi və dövlət rəhbərlərinə saymaz münasibət...

**Son zamanlar ABŞ-Ermənistan münasibətlərində 3 istiqamətdə problemlər özünü göstərməkdədir. Başda Ermənistanın parlament spikeri Ararat Mirzoyan olmaqla, ölkə rəsmilərinin ABŞ-a çoxsaylı səfəri uğursuz nəticələnib. Məsələ ondadır ki, Ermənistan rəsmiləri səfər zamanı aşağı ranqlı şəxslərlə görüşlər keçiriblər.**




## *Ramil Hüseynov: "Ermənistanda ötən il baş verən məlum "məxməri inqilab"dan sonra Vaşinqtonun Paşinyana bəslədiyi ümidlər özünü doğrultmadı"*

Ermənistan rəsmilərinin yüksək səviyyəli ABŞ rəsmiləri ilə görüşləri baş tutmayıb. Ən yaxşı halda, Ermənistan rəsmilərini müavinlər qəbul ediblər.

Bununla yanaşı, ABŞ Ermənistana maliyyə yardımını azaldır. ABŞ-ın Ermənistana ayırdığı maliyyə yardımları ildən-ilə azalır. 2020-ci ildə Birləşmiş Ştatların Ermənistana 6,75 milyon dollar ayıracağı gözlənir. Faktiki olaraq, Ermənistana ayrılan pullar əvvəlki illərlə müqayisədə kəskin azalır. Belə ki, 2017-ci ildə bu rəqəm 26,41 milyon dollar, 2018-ci ildə 6,8 milyon dollar idisə, cari ildə bu, 6,4 milyon dollar təşkil edib. Qarabağdakı separatçı quruma edilən yardım isə ümumiyyətlə dayandırılır.

Ən nəhayət, ABŞ Ticarət Nazirliyi Ermənistanın İrəvan Əlaqə Vasitələri Elmi-Tədqiqat İnstitutu Qapalı Səhmdar Cəmiyyəti və "Markel" Qapalı Səhmdar Cəmiyyətini öz "qara siyahı"sına salıb. Məlum olub ki, İrəvan Əlaqə Vasitələri Elmi-Tədqiqat İnstitutunun bu siyahıya düşməsinə səbəb QSC-nin ABŞ Təhlükəsizlik və Sənaye Bürosunun kommersiya nəzarəti siyahısında olan malları lazımi lisenziyalar olmadan təkrar ixrac etməsi olub. Digər səbəb Vaşinqtondan hər iki QSC-nin icraçı direktorunun ABŞ sanksiyaları altında olan İran təşkilatları ilə bizneslə məşğul olmasıdır. Bütün bunlar isə ABŞ tərəfindən Ermənistana maliyyə yardımının azalmasının ardınca Vaşinqtonun İrəvana daha bir iqtisadi zərbəsi sayılır.

O baxımdan ABŞ-Ermənistan münasibətlərində yaranan sözügedən 3 böyük problemi ekspertlər necə dəyərləndirirlər?

*"Bunların heç biri reallaşmadığı üçün Ermənistana maliyyə yardımı azalır, erməni şirkətləri "qara siyahı"ya salınır"*

Məsələyə münasibət bildirən VİP-in sədr müavini Ramil Hüseynovun sözlərinə görə, bütün bunlar bir sıra səbəblərdən irəli gəlir: "ABŞ-Ermənistan münasibətlərində yaranan problemlər təsadüfi deyil. Məsələ ondadır ki, Ermənistanda ötən il baş verən məlum "məxməri inqilab"dan sonra Vaşinqtonun Paşinyana bəslədiyi ümidlər özünü doğrultmadı. Paşinyan əvvəllər bir sıra populist vədlər versə də, sonra fəaliyyəti ilə bunların üstündən xətt çəkdi. ABŞ gözləyirdi ki, Paşinyan hakimiyyəti ciddi islahatlar aparacaq. İslahatlar sayəsində Rusiyadan uzaqlaşaraq Qərbə inteqrasiya yolunu tutacaq. Ancaq Paşinyan nə etdi? O tam əksinə olaraq, islahat adı altında imitasiya siyasəti yeridərək nəinki Rusiyadan uzaqlaşmaq, əksinə, bu ölkə ilə yaxınlaşmaq yolunu tutdu. Bununla belə, ABŞ-ın çağırışlarına rəğmən, Ermənistan hakimiyyəti İranla daha da yaxınlaşmaq yolunu tutdu. Ən nəhayət, Dağlıq Qarabağ münaqişəsinin tənzimlənməsi ilə bağlı Paşinyan kompromis mövqe sərgiləmədi. Hansı ki, Con Bolton Ermənistana səfər edərkən bu ölkənin inkişafının münaqişənin həllindən asılı olduğunu bəyan etmişdi.

Bütün bunların heç biri reallaşmadığı üçün, Ermənistana maliyyə yardımı azalır, erməni şirkətləri "qara siyahı"ya salınır".

**Vidadi ORDAHALLI**

# Avropa Birliyi ilə Rusiya-İran alyansı qarşısında "Transxəzər"i nə gözləyir...

**Uzun illərdir xüsusi müzakirə mövzusuna çevrilən "Transxəzər" qaz kəməri ilə bağlı yenidən maraqlı bir vəziyyət yaranmaqdadır. Belə görünür ki, "Transxəzər" məsələsi yaxın tezlikdə Qərblə Rusiya, eləcə də İran arasında daha ciddi geosiyasi çəkişmə predmetinə çevriləcək.**




## *İlham Şaban: "Transxəzər"in reallaşması artıq kommersiyadan irəli gələn maraqlardan asılıdır"*

Məsələ ondadır ki, Xəzəryanı ölkələrin iqtisadi forumu zamanı "Transxəzər" kəməri ideyası da gündəmə gəlib. Amma İranın "National Gas Company" şirkətinin nümayəndəsi Bəhruz Namdari ölkəsinin buna qarşı olduğunu bildirib: "İran Xəzər dənizində şərqdən qərbə qaz kəmərlərinin tikintisinə qarşı çıxır, çünki bu, regionun ekologiyasına ciddi zərər vura bilər".

Rusiyanın Baş naziri Dmitri Medvedyev də Xəzər forumunda çıxışı zamanı Xəzərdə neft-qaz kəmərlərinin çəkilməsinə dair layihələrin əvvəlcə bütün sahilyanı ölkələr tərəfindən ekoloji ekspertizadan keçirilməli olduğunu deyib. Belə müddəa Xəzərin statusuna dair konvensiyada da əksini tapır. Amma konvensiyanın digər müddəasına görə, Xəzərdə neft-qaz kəmərlərinin çəkilməsi, həmin kəmərlər hansı ölkənin milli sektorlarından keçirsə, onların öz aralarında razılaşdırılmalıdır. Tehran və Moskvanın bu mövqeyinə rəğmən, "Transxəzər" kəməri ideyasını Qərb fəal müdafiə edir və dəfələrlə bu layihə Türkmənistanla danışıqlarda müzakirə olunub. Məsələn, elə Xəzər forumu zamanı Rusiya və İranın məlum mövqeyi fonunda Avropa İttifaqı (Aİ) Türkmənistanla bu ölkəni Azərbaycanla birləşdirəcək "Transxəzər" kəmərinin tikintisinin maliyyələşdirilməsinə dair danışıqları bərpa edib. Qurumun Mərkəzi Asiya üzrə xüsusi nümayəndəsi Peter Burian bildirib ki, təmsil etdiyi beynəlxalq maliyyə qurumu Türkmənistana məxsus təbii qazın Avropa ölkələrinə nəql edilməsini nəzərdən keçirir.

Maraqlıdır, yuxarıda sadalanan iki fərqli münasibət fonunda "Transxəzər" kəmərini nə gözləyir?

Sözügedən məsələni "Bakı-Xəbər"ə şərh edən Neft Araşdırmaları Mərkəzinin rəhbəri İlham Şaban buna bir neçə kontekstdən yanaşdı: "Avropa İttifaqının "Transxəzər"lə bağlı verdiyi qərar qurumun ümumi regiona baxışı və istəyidir. Regionda enerji ilə zəngin olan Türkmənistan öz təbii qazını bir istiqamətdə deyil, bir neçə istiqamətdə ixrac etmək istəyir. Bununla da özünün həm enerji təhlükəsizliyini, həm də ixrac təhlükəsizliyini gücləndirmək, şaxələndirmək istəyir. O cümlədən, bu minvalla, özünün iqtisadi təhlükəsizliyinin stabilliyini təmin etmək istəyir. İkinci bir tərəfdən, bu, Avropanın enerji təhlükəsizliyinə əlavə stimul olar. Yəni bu istək və arzudur. Başqa bir tərəfdən, Rusiya və İranın fərqli mövqedən çıxış etməsi onların öz maraqlarından irəli gəlir.

*"Rusiya və İranın fərqli mövqedən çıxış etməsi onların öz maraqlarından irəli gəlir"*

Sözügedən dövlətlər öz maraqlarından çıxış edərək bu cür fikirlər səsləndirirlər.

Hesab edirlər ki, "Transxəzər"in reallaşması onların maraqlarına uyğun deyil. Türkmənistan rəsmilərinin fikirlərinə baxsaq görərik ki, 2007-ci ilin martından davamlı olaraq müəyyən zaman fasilələri ilə onlar da bu yöndə fikirlər səsləndirirlər. Bəyan edirlər ki, Türkmənistan Qərb marşrutu ilə qazın ixracında maraqlıdır. Deməyim odur ki, hər bir tərəf öz marağını dilə gətirir. Ortada hələlik konkret başqa bir şey yoxdur. Ancaq "Transxəzər"in reallaşması artıq kommersiyadan irəli gələn maraqlardan asılıdır. Bununla bağlı ortaq məxrəc tapılsa, layihə reallaşa bilər".

**Vidadi ORDAHALLI**

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu

KİVDF

www.kivdf.gov.az

**Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi**



# Ermənistan Rusiyanın Azərbaycana silah satışına heç cür mane ola bilmədi - Ordumuza SU-35-lər gəlir

**ABŞ və Rusiyanın Ermənistana getdikcə dəyişən münasibəti İrəvanda artıq xüsusi narahatlıq predmetinə çevrilməkdədir. Məsələ burasındadır ki, Vaşinqton və Moskva İrəvanı arxa plan aatdıca onların Bakı ilə münasibətləri yüksələn xətt üzrə inkişaf edir. Hadisələrin məhz bu səpkidə inkişafı Dağlıq Qarabağ münaqişəsinin də gedişinə mütləq mənada öz təsirini göstərəcək və Ermənistan da məhz bundan ciddi narahatdır.**

Erməni mediasının yazdıqlarından belə bəlli olur ki, indi həm ABŞ-da, həm də Rusiyada Ermənistan rəhbərliyi özünü tam gözdən salıb. Elə bu səbəbdəndir ki, erməni rəsmiləri Vaşinqton və Moskvada qəbul edilmir. Məsələn, okeanın o tayında İrəvan rəsmilərinin qəbul edilmədiyi birmənalı faktdır. Ermənistanın xarici işlər naziri Zöhrab Mnatsakanyanın da etirafları bu xüsusda çox maraqlıdır: "Ermənistan baş naziri Nikol Paşinyan ABŞ prezidenti Donald Trampla görüşmək istəyir, bu məsələ hələ də gündəlikdədir". Amma erməni nazir onu da etiraf edir ki, bundan əvvəl Trampla görüşün təşkili üçün edilən səylər nəticə verməyib: "Bu görüş ötən il sentyabrda Nyu-Yorkda keçirilən sammit çərçivəsində olmalı idi, lakin baş tutmadı. Amma belə bir görüşün keçirilməsini istəyirik". Əlavə edək ki, Ağ Ev ötən il rəsmi İrəvanın Donald Trampla görüşlə bağlı iki müraciətini rədd edib. Rəsmi Vaşinqtondan verilən açıqlamada Paşinyanla görüş üçün Trampın vaxtının olmadığı bildirilmişdi. Cari il üçün də eyni mövqe sərgilənir. Bunların əvəzində ABŞ Ermənistana və separatçı Qarabağ rejiminə maliyyə yardımlarını kəsir, eyni zamanda erməni şirkətlərini "qara siyahı"ya salır. Xatırladaq ki, artıq bu siyahıya Ermənistanın "Markel" QSC və İrəvan Rabitə Vasitələri Elmi Tədqiqat İnstitutu da daxil edilib.

ABŞ-ın Fedral qeydiyyat jurnalının saytında yayılan sənəddə bildirilir:

"İrəvan Rabitə Vasitələri Elmi Tədqiqat İnstitutu ABŞ-ın sənaye və təhlükəsizlik bürosunun "Ticarətə nəzarət siyahısı"dan mal alıb və zəruri lisenziyasız təkrar ixrac edib. İrəvan Rabitə Vasitələri Elmi Tədqiqat İnstitutunun icraçı direktoru və "Markel" QSC-nin sədri olan şəxs, ABŞ-ın tətbiq etdiyi sanksiyalar siyahısında olan İran təşkilatı ilə bizneslə məşğul olur. Bununla da ABŞ və İran arasında gərginliyin Ermənistana təsiri barədə ekspertlərin proqnozları doğrulmaqdadır. Problem iki erməni şirkəti və onların fəaliyyətində deyil, problem ondadır ki, bundan sonra erməni şirkətləri, geniş mənada Ermənistan faktiki olaraq ABŞ-ın sanksiyaları siyahısına düşüb. Erməni mediası bu xüsusda yazır: "Aydındır ki, bu, siyasi qərar nəticəsində baş verib və bunun siyasi davamı olacaq. Məsələ burasındadır ki, Ermənistanda İranla əməkdaşlıq edən şirkətlər daim olub. Təbii ki, ABŞ-ın bu barədə məlumatı olub. Lakin İranın təcrid edilən Ermənistan üçün əhəmiyyətini nəzərə alaraq, məsələyə lokal yanaşılıb. Bu münasibət Ermənistan-ABŞ münasibətlərinin təzahürü, hər hansı şəkildə isə bilavasitə Ermənistana kömək kimi qələmə verilib. Lakin bu gün artıq reallıqlar dəyişib və ABŞ hakimiyyəti İran tərəfi ilə münasibətləri olan erməni şirkətlərini nəzərə alır. Lakin vəziyyətin bu şəkildə dəyişmə səbəbini Ermənistan-ABŞ yox, Ermənistan-Rusiya münasibətlərində axtarmaq lazımdır". Xatırladaq ki, inqilabdan sonra da Ermənistanın yeni hakimiyyəti xarici siyasətdə Rusiyameylli addımlar atır və artıq bu da Vaşinqtonda xoş qarşılanmır. Elə bundan irəli gəlir ki, ABŞ Ermənistana yardımın həcmini azaltdı, qondarma quruma ayrılan yardımı isə faktiki olaraq dayndırdı. ABŞ-ın bu addımı ilk növbədə Ermənistanın Suriyadakı addımına cavab idi. "Amulsar" mədənində ən böyük ABŞ-dan gələcək investisiyanın dayandırılmasını da nəzərə alsaq, o zaman mənzərə daha da aydın olur. Ekspertlər ABŞ-ın bu addımnın davamlı olacağını pronozlaşdırır. Amma ABŞ-la yanaşı, Rusiya ilə də bağlı hadisələrin inkişaf axarı İrəvanın lehinə deyil.

Baş verənlərlə bağlı erməni ekspert Armen Bədəlyan bildirir ki, İrəvanın nümayişkaranə jestlərinə rəğmən, Ermənistan-Rusiya münasibətlərində bir sıra qaranlıq məqamlar var: "Moskva Ermənistanda baş verənləri rəngli inqilab sayır, amma hər bir halda hakimiyyətin dəyişməyi ilə bağlı bir sıra anlaşılmaz məqamlar mövcuddur. Nikol Paşinyan əlindən gələn hər şeyi edir ki, Rusiyanın dəstəyi və etibarını qazansın. Ermənistan hakimiyyəti özünün sələflərindən daha çox rusiyayönlü xətt həyata keçirir. Amma bunlar Moskvanı qane etmir və Kreml Paşinyan getməyənə qədər Ermənistan qarşı təzyiq dilində danışmağa davam edəcək. Bu fonda Ermənistana Rusiyadan gətrilməsi gözlənilən hərbi texnikanın verilməsi də ciddi sual altındadır. Moskva İrəvana yeni hərbi kredit ayırmağa tələsmir". "1in.am" saytı yazır ki, bütün bunların əvəzində Rusiya Azərbaycana müasir texnikalar verməyə hazırlaşır. Özü də Ermənistanın ciddi narazılığan rəğmən. Rusiya Təhlükəsizlik Şurasının katibi Nikolay Patruşevin Ermənistana səfəri fonunda bu məsələ yenidən gündəmə gətrilib. Ermənistan Təhlükəsizlik Şurasında keçirilən görüş zamanı bu məsələ qaldırılsa da, Nikolay Patruşev silah satışının hansısa pozuntu olmadığı halda reallaşdığını bildirir. "1in.am" qeyd edir ki, bu durumda Rusiya yeni müasir silahlarını həm birbaşa, həm də dolayı yolla Azərbaycana satmağa hazırdır və bu məsələdə İrəvanın narahatlığı onun zərrə qədər də vecinə deyil. Qeyd olunur ki, İrəvan Rusiyadan Su-30 qırıcılarını almağa çalışdığı, amma bunun hələ nə vaxt reallaşacığının bilinmədiyi bir vaxtda Bakı daha üstün olan Su-35 təyyarələrinə yiyələnə bilər: "Yaranmış durumda türk mətbuatı yazır ki, Türkiyə çoxfunksiyalı Su-35 rus qırıcı təyyarələrini əldə etmək imkanlarına baxır. Əvvəllər rus hərbi-sənaye kompleksinin yüksəkçinli bir məmuru bu qırıcıları Türkiyəyə təmin etməyə hazırlıq haqqında bəyanat vermişdi. Bu təyyarələrin əldə edilməsini şərtləndirən odur ki, ABŞ sanksiyalar kontekstində Ankaraya yeni amerikan F-35 təyyarələrini verməkdən imtina edib. Vaşinqtonun bu qərarına da səbəb o olub ki, Ankara, çoxsaylı xəbərdarlıqlara baxmayaraq, rus S-400 sistemi almaqdan imtina etməyib.

Yeni rus-türk hava anlaşmasının reallaşma imkanının nə qədər mümkün olub-olmaması hələlik aydın deyil, lakin Ermənistan üçün bu anlaşma, ehtimal ki, S-400 sisteminə nisbətən daha böyük qayğıya səbəb olur. Çünki S-400 sistemi müdafiə təyinatlı silah sistemi olduğu halda, çoxfunksiyalı Su-35 qırıcı təyyarələri ən yeni rus hücum silahlarıdır. Problem də ondadır ki, Ermənistan özünün yeni müdafiə strategiyasında əsasında hava hakimiyyəti duran hücum strategiyasına keçdiyini bəyan edib. Ermənistan buna nail olmaq üçün də Rusiyadan çoxfunksiyalı Su-30 təyyarələri alır, onların ilk partiyasının gəlişi 2020-ci ilin yanvar ayında gözlənilir. Amma bunun o vaxt reallaşmasına da tam təminat yoxdur. Hələ ilkin mərhələdə bir sıra rus ekspertlərində erməni-rus anlaşmasının mümkünlüyü haqqında belə bir fikir vardı: Moskva bu təyyarələri İrəvana ona görə satır ki, sonra Bakıya Su-35-ləri satsın. Yeri gəlmişkən, rus hərbi-sənayeçiləri onların Bakıya tədarük edilməsinə hazırlıq haqqında da danışırdılar. Əlbəttə, onların, necə deyərlər, peşəkar hazırlığı bir şeydir, məsələnin siyasi həlli aspekti isə başqa bir şey. Hərbi-sənayeçilər hazır ola bilərlər, ancaq bunu etmək və ya etməmək məsələsini siyasi rəhbərlik həll edəcək. Rusiyanın siyasi rəhbərliyi aprel müharibəsindən və Ermənistanda "məxməri inqilab"dan sonra, müəyyən şərtlərə görə, Bakıya belə strateji əhəmiyyətli silahların satışında çətinlik çəkir. Çünki İrəvan "məxməri inqilab"dan sonra mümkün və ya möhtəməl müharibəyə görə siyasi məsuliyyəti Rusiyanın üzərinə qoyub.

Burada problemlər, həqiqətən, ciddidir. Lakin eyni zamanda narahatlıq üçün səbəb də ciddiləşir. Belə ki, müəyyən reallıqlara görə, İrəvan qarşısında çətinlik çəkən Rusiya Bakını, necə deyərlər, Türkiyə vasitəsilə silahlandıra bilər. Məhz bu, İrəvan üçün ciddi siyasi diqqət predmeti olmalıdır. Bakının maraqlarının dolayısilə təmin edilməsinin, xüsusilə hər hansı bir sövdələşmə olduğu halda, silah tədarükünün istisna olunması üçün preventiv tədbirlər görülməlidir. Bununla birlikdə, hətta Rusiya özü ümumiyyətlə Bakı ilə hərbi-texniki ticarətdə Türkiyədən vasitəçi kimi istifadə etmə variantına baxmasa da, İrəvan istənilən halda preventiv tədbirlər görməlidir ki, Ankaradan silahların üçüncü ölkəyə verilməyəcəyi barədə təminatın alınması şərti çərçivəsində satışın baş tutmasıyla üzləşməsin. Belə bir praktika mövcuddur və hətta Rusiya onu İrəvanla münasibətlərdə tətbiq edib. Bu səbəblə, əgər o, Su-35-lərin satışınadək gedəcəksə, həmin şeyi Türkiyə ilə hərbi ticarətdə də etməlidir. Amma bunun İrəvanın istəydi kimi nəticələnəcəyi də ciddi sual altındadır. Çünki indiyə qədər olan təcrübə göstərir ki, İrəvanın narahatlığına əksər hallarda Moskva heç məhəl də qoymur. Məsələn, Rusiya Türkiyəyə S-400 satıb ki, bu sistem Rusiyanın hərbi bazası yerləşən və vahid regional hava hücumundan müdafiə sisteminə malik olduğu Ermənistanın hava məkanını örtür və Ermənistanın təhlükəsizliyini təhdid edir. Moskvada bununla bağlı hansı hesablamaların aparıldığını və türk tərəfindən hansı zəmanətlərin əldə etdildiyini yalnız ehtimal etmək qalır. Lakin baş verənlər onu göstərir ki, Rusiyada növbədi dəfə Ermənistanın maraqları nəzərə alınmır. Öz müttəfiqinin rəqiblərinə silahlar verilməsinə Moskvada sadəcə olaraq yaxşı münasibət göstərirlər". Bu fonda hesab edilir ki, Azərbaycan istədiyi təqdirdə Rusiyadan, Su-35-lər də daxil olmaqla, digər müasir silahları tədarük edə bilər. Bütün bunlar həm də onun təsdiqidir ki, İrəvanın Kremlə də münasibətlərində ciddi problemlər hökm sürür və Ermənistanın mövqeyi Rusiyada nəzərə alınmır. Rusiya, eləcə də ABŞ-la pisləşən münasibətlər isə Ermənistanı regionda daha zəif duruma salır.

***Tahir TAĞIYEV***

**Yazı Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyilə çap olunur.**

# Pakistan Kəşmir məsələsində Azərbaycandan rəsmi dəstək gözləyir...

**"Azərbaycan bizə dost olan ölkədir. Bu qardaş ölkədən dəstək gözləyirik". Bu barədə Pakistanın Azərbaycandakı səfiri Səid Xan Möhmənd ölkəsinin müstəqilliyinin 73-cü ildönümünə həsr olunan mətbuat konfransında bildirib. Səfir sözügedən məsələ ilə bağlı bir sıra məqamlara toxunub:**




"Bu yaxınlarda Azərbaycan Xarici İşlər Nazirliyində olmuşam, Kəşmir məsələsini müzakirə etdik. Həmçinin, Azərbaycanın İslam Əməkdaşlıq Təşkilatının Kəşmir təmas qrupunun da üzvü olduğunu qeyd etmək istəyirəm. Biz də Azərbaycandan Kəşmir qətnaməsini dəstəkləməsini xahiş etmişik".

Səid Xan Möhmənd bildirib ki, Pakistan Azərbaycanın dəstəyini gözləyir: "Pakistan Qarabağ münaqişəsində hər zaman Azərbaycanın yanındadır və indiyədək Ermənistanı dövlət olaraq tanımırıq. Pakistan parlamentinin hər iki palatasında Xocalı qətliamına dair qətnamələr qəbul olunub".

Pakistanın Azərbaycandakı səfiri Səid Xan Möhmənd onu da qeyd edib ki, Hindistan Konstitusiyasının 1954-cü ildə qəbul edilən müddəalarına görə, Kəşmirdə yalnız kəşmirlilər yaşaya bilərdi: "Amma 5 avqust 2019-cu ildə Hindistan Konstitusiyasında həmin maddələrə dəyişiklik edilib. Bu o deməkdir ki, artıq hindistanlılar Kəşmirə rahat gələ bilər, dövlət işlərində işləyə bilər, orada yaşaya bilərlər".

O da məlumdur ki, Pakistanla sıx dostluq əlaqələrinə malik olan Azərbaycan imkan daxilində bu ölkəni dəstəkləyib. Ancaq Dağlıq Qarabağ münaqişəsi səbəbindən Kəşmir məsələsində bir qədər ehtiyatlı mövqe sərgiləyir. Bütün bunlarla yanaşı, Pakistan səfirinin məlum müraciətindən sonra Azərbaycan Kəşmir məsələsində hansı mövqe tutmalıdır?

## *Elşən Manafov: "Biz Kəşmir məsələsinə münasibət sərgiləyərkən, bütün hallarda, Azərbaycanın milli təhlükəsizlik maraqlarını nəzərə almalıyıq"*

Məsələyə münasibət bildirən politoloq Elşən Manafovun sözlərinə görə, Kəşmir məsələsinə Pakistan-Azərbaycan münasibətləri kontekstində yanaşmaq lazımdır: "Məsələ ondadır ki, Pakistan bütün beynəlxalq təşkilatlarda Azərbaycanın haqlı mövqeyini müdafiə edir. Beynəlxalq hüquq normalarına istinadən Qarabağın Azərbaycanın tərkib hissəsi olduğunu bəyan edib. Müharibə başlanacağı təqdirdə hətta hər cür hərbi dəstək verməyə hazır olduqlarını bildirib. Bir məqamı da qeyd edim ki, Pakistan müsəlman dövlətləri içində Ermənistanla heç bir diplomatik münasibəti olmayan yeganə dövlətdir. Hətta Türkiyədən uzağa gedərək Pakistan bu addımı atıb. Kəşmir məsələsi ilə bağlı rəsmi Dehli ilə İslamabad arasında münasibətlərdə yaşanan gərginliyə beynəlxalq birliyin sərgilədiyi mövqeyə də diqqət etmək lazımdır. Burada Çin, İndoneziya, Türkiyə birmənalı şəkildə Pakistanı dəstəkləyir. Ancaq qonşu İran Kəşmir məsələsində daha ehtiyatlı mövqe sərgiləyir. Məlumdur ki, Kəşmir məsələsini Dağlıq Qarabağla heç cür eyniləşdirmək olmaz. Çünki bunlar tamam fərqli məsələlərdir. Gərginliyin səbəbi Hindistan tərəfinin Pakistanla razılaşdırmadan zamanında Kəşmirlə bağlı əldə edilmiş statusun ləğvi istiqamətində qəbul etdiyi qərardır. Nəticədə Kəşmirin statusu ləğv edilib və prezident bunu təsdiq edib. Beynəlxalq diplomatik çərçivədə güman ki, biz bu məsələyə münasibət bildirəcəyik. Çünki Pakistanla münasibətlər bizim üçün çox ciddi əhəmiyyət kəsb edir. Ancaq nəzərə almaq lazımdır ki, Hindistan da dünyanın ən güclü dövlətlərindən biridir. Ona görə də təbii ki, biz Kəşmir məsələsinə münasibət sərgiləyərkən, bütün hallarda, Azərbaycanın milli təhlükəsizlik maraqlarını nəzərə almalıyıq.

*"Hesab edirəm ki, BMT Baş Assambleyasında bu məsələ müzakirəyə çıxarılarsa..."*

Qarabağ probleminin gələcək həlli perspektivlərinə bu münasibətin necə təsir göstərə biləcəyini nəzərə almalıyıq. Hesab edirəm ki, BMT Baş Assambleyasında Kəşmir məsələsi müzakirəyə çıxarılarsa, Pakistanın haqlı mövqeyini dəstəkləməyə Azərbaycan borcludur".

***Vidadi ORDAHALLI***

# Honq Konqda və Kəşmirdə dünya müharibəsi təhlükəsi...




**Dünyada artan siyasi gərginlik bəzi bölgələrdə yeni qarşıdurmalara səbəb ola bilər. Bu fonda Asiya qitəsində son günlər yaşananlar daha çox diqqət mərkəzinə gəlib.**

Baki-xeber.com xəbər verir ki, bir tərəfdən Hindistanın "Cəmmu Kəşmir" qərarından sonra Pakistandan gələn sərt müharibə xəbərdarlıqları, digər tərəfdən də Çinin muxtar bölgəsi Honq Konqda Pekinə qarşı etirazların güclənməsi bölgənin böyük bir təhlükə ilə üz-üzə olduğunu göstərir.

Dünya Pekinin Honq Konqa ağır nəticələrə səbəb ola biləcək hərbi qüvvə yeridəcəyindən ehtiyatlanır. Artıq bununla bağlı xəbərlər də artmağa başlayıb, Çinin bölgəyə böyük hərbi qüvvə topladığına dair görüntülər də yayılıb. Sonuncu dəfə isə Fransanın xəbər agentliyi AFP Çin ordusunun Honq Konq sərhədindəki gizli görüntüsünü yayımlayıb. Görüntülərdə Çin ordusu stadionda mərasim keçirir, stadiondan kənarda çox sayda zirehli hərbi texnikanın yerləşdirilməsi də diqqətlərdən yayınmır. Bu, rəsmi Pekinin etirazların gücləndiyi Honq Konq ətrafında hərbi qüvvə yığmaqda davam etdiyini bir daha göstərir. Bu görüntülər beynəlxalq ictimaiyyətdə də ciddi narahatlığa səbəb olub.

Asiyada başqa bir gərginlik ocağı isə Kəşmir böhranıdır... Hindistan bu yaxınlarda birtərəfli qaydada "Cəmmu Kəşmir" in xüsusi statusunu ləğv edib. Bu, bölgədəki gərginliyi daha da artırıb. Hindistanın qərarına reaksiya verən Pakistanın baş naziri İmran Xan bu dəfə daha sərt açıqlama ilə çıxış edib. "Dünya Hindistanın işğalı altında Kəşmirdə müsəlmanlara qarşı Srebrenitsaya bənzər bir qətliam və etnik təmizləməyə susaraq şahidlik edəcək? Beynəlxalq ictimaiyyətə, buna icazə verəcəyi halda, hadisələrin müsəlman dünyasında radikallaşmaya və zorakılığa yol açacaq sərt əks reaksiyalar və etirazlar doğuracağı ilə bağlı xəbərdarlıq edirəm" - İmran Xan deyib.

Qeyd edək ki, cinayətkarların, Çin də daxil, Tayvan və Makaoya ekstradisiyasını asanlaşdıran qanun layihəsi Honq Konqda kütləvi etirazlara səbəb olub. Pekin rəhbərliyi əleyhinə küçələrə çıxan etirazçılarla Çin təhlükəsizlik qüvvələri arasında tez-tez toqquşmalar yaşanır.

Etirazlar nəticəsində qanun layihəsinin təxirə salınmasına baxmayaraq, aksiyalar səngimək bilmir və aylardır davam edir.

# Suriya üsyançıları Əsədin döyüş təyyarəsini vurdu, pilot əsir alındı

**Suriyada Bəşər Əsəd rejiminə aid Rusiya istehsalı döyüş təyyarəsini vurulub.**

Baki-xeber.com xəbər verir ki, Hama əyalətinin şimal kəndlərinə və İdlibin cənubuna hücuma hazırlaşan Əsəd rejiminə aid SU-22 tipli döyüş təyyarəsi müxaliflər və rejim əleyhdarı silahlı dəstələr tərəfindən vurulub.

Vurulan təyyarənin pilotu paraşütlə Temaniye bölgəsində düşdükdən sonra əsir alınıb.

**İşğalçı Ermənistanda getdikcə daha da dərinləşən sosial-iqtisadi böhran fonunda baş nazir Nikol Paşinyanın da mövqeləri sürətlə laxlayır. Real vəziyyət göstərir ki, Paşinyanın Ermənistanda hansısa müsbət dəyişikliklərə gətirib çıxaracaq addımlar ata biləcəyinə inanan ermənilərin sayı sürətlə azalır.**

# Paşinyan Sarkisyanın iqtisadi-maliyyə oliqarxiyasının təsirindən çıxa bilmədi



Bundan isə Paşinyana qarşı olan qüvvələr məharətlə istifadə edir. Ermənistan parlamentinin keçmiş vitse-spikeri Eduard Şarmazanov bildirir ki, belə vəziyyətdə Paşinyanın hakimiyyətdən devrilməsi çox yaxın zaman ərzində baş verə bilər. Onun sözlərinə görə, Nikol Paşinyan bir il ərzində verdiyi vədləri yerinə yetirməyib: "O deyir ki, uğursuz olub, bu bir il ərzində verdiyi vədləri yerinə yetirməyib, bir dövlət başçısı kimi adekvat deyil və uzaqlaşmalıdır. Təbii ki, bu problemlər bir il ərzində həll edilə bilməzdi". O qeyd edib ki, Paşinyan siyasi xadim deyil və etdiyi hərəkətlərlə klounu xatırladır: "O şoumendir, "sehrli çubuq" işləmir, o indi yeni bir şey deməlidir. Bir az öncəyə baxmalıdır ki, uğursuzluğa uğrayıb. Bir il əvvəl hakimiyyətə gəlmisən, min vəd vermisən, lakin heç bir vədi yerinə yetirməmisən". Eyni mövqeni Ermənistanda bir çox rəsmi vəzifələr tutmuş David Şahnazaryan da sərgiləyir: "Paşinyanın hökuməti nə edir? Bizim 3 prezidentimiz olub. Onların fəaliyyətində istər müsbət, istər mənfi hallar baş verib. Gəlin indi hansının daha çox olduğunu dəyərləndirməyək. O, məqsədyönlü olan müsbətləri dağıdır, mənfiləri inkişaf etdirir. Paşinyan deyir ki, dövlət sistemi yoxdur, bütün qurumlar mövcud deyil, məgər bir il idarəetmədən sonra bunu başa düşdün? Belə olmasa da, keçmiş hakimiyyət dövründə qurumlar daha səmərəli işləyirdi, nəinki indi. Hətta hesab edək ki, bu belədir. Müharibə edən ölkənin icraçı rəhbəri olaraq bu cür bəyanatla çıxış etməyə haqqın yoxdur. Davamlı olaraq öz çağırışları, bəyanatları ilə qeyri-sabitlik yayır. Qalmaqallar təşkil edir. Daha sonra bu qalmaqalları harda gizlədir? Mütəmadi olaraq mövzuları dəyişməklə yeni qalmaqalların altında gizlədir. İctimaiyyət narazılıq edəndə, sorğu-suala çəkəndə, daim mövzuları dəyişir".

Ermənistanın "1in.am" portalı yazır ki, artıq yaranmış vəziyyətdə Paşinyan getdikcə erməni diasporu və sabiq prezident Serj Sarksiyana bağlı oliqarxlardan asılı bir hala gəlir: "İlin birinci yarısının ən böyük 1000 vergiödəyicisinin siyahısı dərc edilib. Siyahıda olanlar elə keçmişdəki həmin adlardır - böyük sahibkarların, oliqarxiya qaydaları ilə işləyən inhisarçıların şirkətləridir. Ermənistan iqtisadiyyatının əsasını, oxunu oliqarxiya təşkil etməkdə davam edir. O, keçmişdə əsasən kölgədə, qismən qanuni sahədə fəaliyyət göstərirdisə, bu gün qanuni sahədədir, ola bilər, ümumiyyətlə kölgədə deyildir. Ancaq problem, ilk baxışda göründüyü kimi, onda deyil ki, oliqarxiya kölgədə, yoxsa qanuni sahədə fəaliyyət göstərir. Hətta oliqarxiyanın qanuni sahəyə keçməsinin müsbət qiymətləndirilməsi yanlış fikir ola bilər. Hakimiyyət bunu özünün uğuru kimi də göstərə bilər. Ancaq bu anlaşılmazlıqdır, çünki oliqarxiya, yenə ilk baxışda göründüyü kimi, öz xarakterinə və funksional təyinatına görə sadəcə iri kapital deyil, ondan daha böyük əhəmiyyət kəsb edir. Oliqarxiya, Ermənistanın öncəki iki hakimiyyətinin 20 ildən artıq müddət ərzində əsaslandığı siyasi-iqtisadi sistemin əsas, həlledici tərkib hissəsidir. Dövlətlə, eyni zamanda cinayət aləmilə çuğlaşmış oliqarxiya bu hakimiyyətlərin mövcudluğuna və"təkrar istehsalına" xidmət edib. Hakimiyyətlər isə öz növbələrində oliqarxiyanın inhisarçı maraqlarına xidmət göstərib.

Oliqarxiya olmadan, Köçəryan-Sarkisyan hakimiyyəti mövcud ola bilməzdi. Öz növbəsində, bu hakimiyyətlərin oliqarxiyaya xidməti olmasaydı, oliqarxiya həm keçmişdə, həm də hazırda malik olduğu rolu və funksional əhəmiyyəti əldə edə bilməzdi. Bu, Ermənistanın həm siyasi, həm də iqtisadi sistemi üçün geridönməz nəticələri olan üzvi, dialektik əlaqə idi. Beləliklə, öncəki rejimlər hakim siyasi qüvvələrin timsalında siyasi təbəqədən və oliqarxiyanın timsalında iqtisadi bazisdən təşkil olunmuşdu. "Məxməri inqilab"la hakimiyyətin siyasi təbəqəsi, yalnız aysberqin görünən hissəsi, zirvəsi uzaqlaşdırıldı. Bu hakimiyyətin digər üzvi tərkib hissəsi olan oliqarxiya isə maneəsiz olaraq fəaliyyət göstərməyə və çiçəklənməyə davam edir. Dolayısı ilə, Ermənistanda "məxməri inqilab"la hakimiyyətin dəyişilməsi fikri yalnız səthi qavrayış şəraitində yerinə düşür. "Məxməri inqilab"la, təkrar edirəm, öncəki hakimiyyətin yalnız siyasi təbəqəsi, - istəyirsəniz, vitrin hissəsi deyin, - dəyişilib. Ötən ilyarım ərzində yeni hakimiyyət iqtisadiyyatın oliqarxik strukturunun dəyişdirilməsi üçün nəinki heç bir sistemli addım atmayıb, eyni zamanda həmin oliqarxiya ilə dinc şəkildə birgə yaşayıb. Üstəlik, hakimiyyətdə, Nikol Paşinyanda belə yalnış təəssürat və ya hiss yarana bilər ki, keçmiş oliqarxlar bu gün artıq "özününkülər" olub.

Ancaq bu heç bir halda elə deyil. Əlbəttə, Nikol Paşinyan oliqarxiyanın maraqlarının xidmətçisi olmaq niyyətində deyilsə. Problem ondadır ki, oliqarxiyanın məntiqinə əsasən, o yalnız onun maraqlarına xidmət edən hakimiyyətin varlığı şəraitində fəaliyyət göstərə və inkişaf edə bilər. Ya oliqarxiya sistem kimi yox olmalıdır, ya da mövcud hakimiyyət tədricən oliqarxiyanın maraqlarına xidmət etməyə başlamalıdır. Biz birinci istiqamətdə atılan hər hansı bir addım görmürük. Dolayısı ilə, istisna edilməməlidir ki, zaman ötdükcə mövcud hakimiyyət oliqarxiyanın maraqlarının xidmətçisinə çevrilə bilər. Əlbəttə, artıq xidmət etməyə başlamayıbsa…

Problem ondadır ki, mövcud hakimiyyət bu və ya başqa formada həmin oliqarxiyadan asılıdır. Çünki oliqarxiya iqtisadiyyatda elə bir rol oynayır ki, bir saat ərzində vəziyyəti dəyişə bilər. Bu planda, demək olar ki, oliqarxiya bu gün də hakimiyyətin qəbul etdiyi qərarlara təsir edir. Ən azı, o dərəcədə təsir edir ki, hakimiyyət oliqarxiyaya qarşı hər hansı bir addım atanda mümkün təxribatlar haqqında düşünür və onlardan çəkinir. Neçə ki Ermənistan iqtisadiyyatında nisbət dəyişməyib, ölkənin iqtisadi modelinin dəyişdirilməsi və bunun nəticəsi olaraq oliqarxiyanın ortadan qaldırılması üçün addım atılmayıb, hakimiyyət, Nikol Paşinyan zahirən onlara sərəncam verdiklərini göstərməklə, oliqarxiya qarşısında qorxu şəraitində yaşayacaq. Əslində hakimiyyəti, ölkənin iqtisadi həyatında öz rolunu oynamağa davam etməklə, dolayısı ilə məhz oliqarxiya idarə edir.

Oliqarxiya vaxt ötdükcə ya hakimiyyəti tam özünə xidmət etməyə məcbur edəcək, ya da hakimiyyəti dəyişdirmə yolları, öz maraqlarına xidmət edən hakimiyyətə malik olma usulları tapacaq. Bu planda keçmiş hakimiyyətin və oliqarxiyanın maraqları üst-üstə düşür. Bu isə o deməkdir ki, oliqarxiyanın mövcud olduğu hər bir gün onun keçmiş hakimiyyət vasitəsilə mövcud hakimiyyətə qarşı fəaliyyət göstərməsi, son nəticədə hakimiyyətin dəyişdirilməsi ehtimalını artırır. Keçmişi geri qaytarmaq üçün mümkün olan hər şeyi edən və edəcək oliqarxiya köhnə Ermənistanın ən böyük və həlledici qalığıdır. Nikol Paşinyan isə özünün apardığı simasız iqtisadi siyasətilə buna yalnız töhfə verir. Belə vəziyyətdə oliqarxiyanın istədiyi şərtləri diqtə etməsi də haradasa təbii qarşılanmalıdır".

***Tahir TAĞIYEV***

# Bakıdan Avropaya, oradan facebooka "qrant yolçuluğu" və "şorqapan müxalifətçiliyin" anatomiyası...

*Facebook yayımçılarının efirdən ianə toplamasına ermənilər əməlli-başlı maya qoyur*



Aydın Quliyev

**Öz gücünü fasiləsiz şəkildə artırdıqca hakimiyyəti qorxuya salaraq, onu müxtəlif güzəşt və islahatlara məcbur edən siyasi müxalifət təşkilatları istənilən ölkədə ictimai inkişafın ən güclü təkanverici qüvvəsinə, hakimiyyətlərin eqoistləşməsinin qarşısını alan ən etibarlı sığortaçıya çevrilir.**

Belə müxalifət qüvvələri fəaliyyət ssenarilərinin özlərinin barışmayan ambisiyaları üzərində yox, cəmiyyətin ən azı 50+1 faiz kəsiminin maraq və zövqləri üzərində qurur, xalq ona gözlədiyi dəstəyi verməyəndə xalqı "qədirbilməz", "sənə bu da azdır" kimi tikanlı sözlərlə ittiham etmir, xalqın hansı modeldə yaşamaq istədiyini ondan daha yaxşı bildiyini iddia etmir, "xalq dəstək versə də, verməsə də biz onu xoşbəxt edəcəyik" kimi gülünc "donkixotluq" səviyyəsi ortaya qoymur, siyasətdə "qalibə hörmət, məğluba şərəf" kimi aforizmlə barışır, bütün bu kriteriyalar əsasında isə siyasi təşkilatların politologiya elmində qəbul olunmuş status və nominal adlar təsnifatına uyğunlaşa bilirlər.

Hakimiyyətə gəlmək, hətta hakimiyyəti yıxmaq uğrunda hələlik 26 illik çabalama təcrübəsinə malik Azərbaycan müxalifətinin statusuna və adına dünya təcrübəsinə uyğun mühakimələrlə yanaşmaq səyləri, təəssüf ki, heç bir nəticə vermir. Fasiləsiz şəkildə böyüməməsi bir yana qalsın, ümumiyyətlə artıb-ağarmır, əksinə, çarəsi bilinməz xəstəliyə tutulmuş bəzi canlı orqanizmlər kimi gündən-günə solur, cəmiyyətdə hamı tərəfindən atılmış "izqoylara" dönür, xalqa ilk müraciət kəlməsi kimi "əziz həmvətənlər"dən başqa ifadə tapa bilmədikləri üçün 26 illik əttökən təkrarçılıqdan sonra bu ifadənin özünü də ikrah obyektinə çevirir, cəmiyyətin onlardan uzaq qaçmasının əsl səbəblərini axtarmaq istəmir, beynəlxalq münasibətləri yönəldən dünya güclərinin indiki Azərbaycan hakimiyyəti ilə uzunmüddətli layihələr icra etdiklərini avantüristcəsinə nəzərə almırlar.

Dünəni silinməz məğlubiyyət damğası ilə ləkələnmiş, bugünü utancverici miskinlik, sabahı isə sadəcə heç kimə lazım olmayan Azərbaycan müxalifətinə klassik politoloji təsnifatlara uyğun ad qoymaq, təəssüf ki, mümkünsüzdür.

### Alternativ Hakimiyyət Partiyası...

Azərbaycanın ictimai-siyasi fikrində tez-tez rast gəlinən mülahizələrdən biri budur:"Bu radikal müxalifət aradan çəkilib getmir ki, onun yerinə fasiləsiz şəkildə güclənərək hakimiyyəti zaman-zaman qorxuya salan, güzəştlərə vadar edə bilən, beləliklə də əslində seçkidən-seçkiyə idarəçiliyi iqtidarla müəyyən nisbətdə bölüşə bilən əsl müxalifət gəlsin". Etiraf edək ki, maraqlı və çoxlu sayda insanın fikrinə təsir göstərən mülahizədir. Azərbaycanda indi yüz minlərlə insan belə düşünür. Lakin onları bu mülahizənin təsir və cazibə dairəsinə salan yanlış bir məqam var ki, indi olmasa da, zaman keçdikcə həmin yüz minlərin bu əyri məqamdan xəbərdr olacağına söz yoxdur. Yanlış məhiyyət ondan ibarətdir ki, cəmiyyətimizdəki həmin yüz minlər indiki radikal müxalifətin siyasi sistemdə guya yalnız öz gücü, qabiliyyəti və müqaviməti hesabına qala bildiyini düşünür. Əslində isə məsələ tamamilə fərqlidir. Xalqa heç bir pozisiyadan yanaşa, qlobal güclər arasında özünə siyasi müttəfiqlər tapa bilməyən müxalifətin siyasi arenada öz gücünün (?) sayəsində qala bilməsi həqiqətən mifik düşüncədir. "Niyə hələ qala bilir" sualının isə çox sadə cavabı var:"Cəmiyyətimizdə müəyyən problemlərdən narazılıq, etiraz olsa da, indiki hakimiyyətə alternativ görmür". Hakimiyyətin alternativini görmədiyi üçün isə bu radikal müxalifətə də əvəzləyici axtarmır. Əgər xalq İlham Əliyev hakimiyyətinin alternativini görə bilsə, bu radikalları heç nəyə baxmadan "sərçə dəstəsi" kimi pərən-pərən edərək, həmin meydanı şərti AHP üçün - "Alternativ Hakimiyyət Partiyası"nın gəlişi üçün təmizləyəcək. Kimlərin bu perspektivi hansı məsafədə görə bilməsi, təbii ki, mübahisəlidir. Lakin konkret və aydın görünən reallıq budur ki, İlham Əliyevin xüsusilə xarici siyasət kursu və dövlətin valyuta ehtiyatlarının artımı hesabına sosial paketlərin icrasını işlək mexanizmə çevirməsi sayəsində sözügedən perspektiv "uca dağların arxasındakı çən topaları kimi" görünməz məsafələrə uçub gedir...

Perspektivsizliyi tam məlum, adı və siyasi statusu qeyri-müəyyən daxili radikallarla müqayisədə Azərbaycandan Avropaya, MDB-yə, Amerikaya və başqa yerlərə mühacirət etmiş, son çarə kimi "facebook yolçuluğuna" baş vurmuş mühacirlər qrupuna isə hər hansı politologiya kitabından, dərslik və dissertasiya işlərindən xəbərsiz xalq özü müxtəlif sərrast adlar verərək gedir. Həm də sadə el dilindəki sözlərdən ibarət adlar qoyulur. Əslində mərhələ-mərhələ bir-birini əvəzləyən adlar cəmiyyətimiz tərəfindən o qədər müdrikcəsinə və ehtivalı şəkildə ixtira edilir ki, daxildəki radikalları və onların xaricdəki uzantılarını eyni çətirin altına toplaya bilir.

### Hər məbləğdə qrantların havasına oynamağa meylli mühacirlər...

Əvvəla onu deyək ki, mühacirlər xaricdə radikal müxalifətin yeni mübarizə mərkəzinə çevrilmək kimi hay-küylü iddia ilə başladılar. Sonda isə həqiqi siyasi radikalizmin təmsilçiləri statusuna iddia haqqını itirdilər, ölkənin daxilindəki ambisiyalı müxalifət dairələrinin sadəcə fiziki uzantısından başqa bir şey olmadıqlarını ortaya qoydular.




**Məsələ burasındadır ki, xaricdəki mühacir qrupların və ciddi beynəlxalq dairələrin siyasətdə radikalizm kateqoriyası ilə ifadə olunan fəaliyyətlərə baxışları fərqlidir. Məsələn, mühacirlər siyasi radikalizmi sadəcə təsəvvürə gəlməyən söyüş və təhqirlərin qanadları üzərində etik çərçivələrdən çox-çox kənarlara uçub getmək kimi təsəvvür etdikləri halda, ciddi dünya qüvvələri üçün radikalizm sağ, sol, millətçilik platformaları üzərində ən prinsipial və dönüşü, əyintisi olmayan fəaliyyət üsuludur. Elə həmin dünya qüvvələrinin "verbovka" dəstələrinin kiçik eksperimentləri çox şeyləri ifşa elədi.**

*(Ardı 9-cu səh.)*

*(Əvvəli 8-ci səh.)*

Qrantlara söykənən eksperimentlər sübut etdi ki, ideoloji radikalizmlə heç bir əlaqəsi olmayan mühacirlər hər məbləğdə qrantların "havasına oynamağa" hazır və həvəslidirlər. Sonra qrantları "ədalətli şəkildə" bölüşdürə bilməyən mühacir aktivistlərin öz aralarında söyüş-döyüşü başladı. Məsələn, dünən xarizmasına və statusuna qəti uyğun gəlməyən saxta bir ağsaqqallıq ədası ilə "əziz qardaşım, biz etik davranmalıyıq" deyə öyüd-nəsihət verən adam özü ondan qat-qat pis söyüş-təhqir yolu tutdu, həm də qrant üstündə və dünən özünə cəbhədaş hesab etdiyi adamların əleyhinə və s. Ciddi dünya qüvvələrində heç bir şübhə qalmadı ki, söyüş-təhqirlə məşğul olan mühacir azərbaycanlılar əslində klassik radikal siyasi ideologiyaların adına ləkə gətirməkdən başqa bir şey deyillər və yalnız ehtiyac yarananda müəyyən məbləğdə qrantlar hesabına konkret "layihələrin" icraçısı olmaqdan başqa nəyəsə yaramırlar. Beləcə ifşa olunmuş "radikallar" bir çox hallarda əleyhinə getdikləri düşərgənin ailə-məişət məsələlərini də önə çəkəndə başqa dəqiq adların da hədəfinə çevrildilər. Dünən özlərinə radikal siyasi müxaliflər statusu qazandırmaq istəyənlər xalqın nəzərində sadəcə "məişət müxalifətinə", "iaşə müxalifətinə", "şorqapan müxalifətə" çevrildilər.

### "Şorqapan müxalifətçilik" başqa, "gözdən tük qapmaq" başqa...

"Şorqapanlıq" Azərbaycanın bir sıra bölgələrində təhqiramiz məzmunda olsa da, el dilində dəqiq hədəfləri olan ictimai qınaq epitetidir. "Gözdən tük qapanlar" epiteti, bir qayda olaraq, ağırlığı insanın intellektual keyfiyyət göstəricilərinin üzərinə qoyduğu üçün əsasən qibtə doğuran mahiyyət ifadə edir. "Şorqapan" ifadəsi isə əksinə, qarın və mədə tələbatının üstünlük psixologiyasına söykəndiyi üçün "sahibini" sözün əsl mənasında gündəlik qazanclara doğru yönəldir. Deyirlər ki, pul hamıya lazımdır. Ancaq həm pula ehtiyacı olan, özünü hər məbləğə sata bilən, həm də yenə pula ehtiyacı olan və satılması mümkün olmayan insanlar kateqoriyası var. Hər cür qrantın parıltısına uyan bəzi mühacirlər asanlıqla "şorqapanlara" çevrildilər.

"Şorqapanlıq" "qarın otarmaq" kimi adi məişət kəlməsi olsa da, siyasətdə də maraqlı nüanslar ifadə edə bilir. "Şorqapanlıqda" şəxsi mənafe və maraq düşkünlüyü, milli və dövlət mənafelərinə dəyərsiz baxış var, milli-mənəvi dəyərlərimizi ayaq altında tapdalamaq, siyasi mübarizə adı altında mənəviyyatsızlıq nümayişi var. Normal, ciddi, dəyişdirici, yönəldici, sistemli siyasi müxalifət platformasından başqa hər şey var. Başqa cür mümkün də deyil. Normal və ciddi müxalifətçilik platforması üzərində mübarizə illər boyu nəticəsiz davam edə bilməz. Əgər davam edirsə, deməli, o əsl müxalifətçilik hərəkatı deyil. Ortada Azərbaycan ictimaiyyətinə imitasiya edilən çoxillik müxalifətçilik adı altında şəxsi mənafelərin ödənməsi, pul toplanması, gün-güzəran keçirilməsi kimi məqsədlər var. Əsl müxalifətə çevrilmək yolunda tam perspektivsizliyi özləri də aydın hiss etdikləri üçün bu yöndə heç bir iş görmürlər. Beləcə, söyüş və təhqirlər üstündə özləri kimilərə müxalifətçiliyə dair "master-klasslar" keçirlər.

### "Facebook müxalifətçiliyini" özü üçün qazanc mənbəyinə çevirənlər...

"Facebook müxalifəti" son illərdə müdrik cəmiyyətimizin icad etdiyi və yerinə düşən dəqiq nominallardan biridir. Sosial şəbəkənin imkanları hesabına guya qlobal bir şəbəkənin bütün sərhədləri boyu Azərbaycan hakimiyyətinə qarşı aparılan mübarizə kimi nəhəng görüntü yarada bilir, bu mübarizənin xalqa heç bir aidiyyəti və təsirinin olmadığını pərdələyə bilir, minlərlə saxta profildən cəmi bir neçə dil pərgarının iştirakı ilə geniş ictimai hərəkat başlatdıqlarını təlqin edir, əslində isə heç nə facebook çərçivəsindən kənara çıxmır, ancaq əvəzində "millətin fədailəri" kimi hər saat insanlara maliyyə dəstəyi üçün müraciət edərək özlərinə pul toplayırlar. Son vaxtlar facebook, You Tube və sair bu kimi şəbəkələr üzərindən birbaşa fərdi yayımların çoxalması dəqiq sübut edir ki, "facebook müxalifətçiliyini" özü üçün əməlli-başlı qazanc mənbəyinə çevirmiş qrup üzvləri xaricdə sürətlə çoxalmaqdadır. Hər gün döşlərinə döyürlər ki, bizi birbaşa 5-6 min adam izləyir. Əvvəla, rəqəm özlüyündə böyük görsənir. Ancaq bu 5-6 minin içində Amerikadan, Avropadan, MDB-dən, Afrikadan, Azərbaycandan izləyicilərin olduğunu nəzərə alsaq, maraqlı nəticələr alınır. Ən obyektiv dəyərləndirmələrə görə, facebookda 5-6 min yayın izləyicisinin 2500-dən çox olmayan hissəsi Azərbaycanda və MDB məkanında yaşayır. Ən yaxşı halda, bunun 1000-1200 nəfərinin Azərbaycanda yaşadığını fərz etmək olar. 10 milyonluq ölkədə cəmi 1000-1200 nəfərin üzərində həm də virtual siyasət qurmağın hansı perspektivlərindən söhbət gedə bilər?! "Facebook müxalifətçiliyi" budur!

Facebook üzərindən birbaşa yayımçılıq fəaliyyətlərinin arxasında ən şübhəli məqamlardan biri toplanan pullarla bağlıdır. Bu yayımçılar Azərbaycan dövlətini, milli-mənəvi dəyərləri, rəsmi simvollarımızı təhqir etdikləri üçün onları izləyənlər tək azərbaycanlılar deyil və ola bilməz. Azərbaycan dövlətinin bugünkü imicini ləkələyən radikal mühacirlərin hər çıxışı ilə dünya ermənilərinin "çiçəyinin çırtdadığını" sübut etməyə yəqin ehtiyac yoxdur. Efirdən toplanan ianələrin hansı mənbədən gəlməsinin mühacir-radikallar üçün heç bir fərqi olmadığından, xaricdəki erməni lobbisi bu işə çox həvəslə pul qoyur. Beləliklə də ermənilərin qarşısında cüzi pullar hesabına Azərbaycanın imicini ləkələyən mexanizmləri işə salmaq imkanı açılır, həm də azərbaycanlı "quriklərin-toliklərin-valiklərin" əli ilə...

# ATƏT "kiçik Xədicə məsələsini" görür, Paşinyanın təcavüzkar bəyanatına isə hələ susur

## *Vüqar Rəhimzadə: "Nə Paşinyanın, nə də Mnatsakanyanın sərsəm fikirlərinə heç bir reaksiya verilmədi"*

**Dəfələrlə ATƏT-in ikili standartlardan çıxış etməsinin şahidi olmuşuq. Bu baxımdan sözügedən qurumun məlum mövqedən çıxış etməsi, bir növ, daha təəccüblü görünmür. Məsələ ondadır ki, ATƏT-in media azadlığı üzrə nümayəndəsi Arlem Dezir jurnalist Xədicə İsmayılovanın işilə əlaqədar Azərbaycan Ali Məhkəməsinin qərarı ilə bağlı narahatlığını bildirib.**



Məhkəmə X.İsmayılovanın sınaq müddətinin ləğvi barədə vəsatətini təmin etməyib və xaricə səfərə qadağanı aradan qaldırmayıb. ATƏT nümayəndəsinin fikrincə, guya ölkədən çıxışın məhdudlaşdırılması jurnalistin hüququnun və peşə fəaliyyətinin ciddi şəkildə məhdudlaşdırılmasıdır.

Hər xırda məsələni şişirtməklə bunu Azərbaycana qarşı təzyiq vasitəsinə çevirməyə çalışan ATƏT, nədənsə, Zöhrab Mnatsakanyan həyasızlığını görməzdən gəlir. Qeyd edək ki, Ermənistanın xarici işlər naziri Z.Mnatsakanyan Baş nazir Nikol Paşinyanın avqustun 5-də Xankəndidəki çıxışı zamanı səsləndirdiyi avantürist, təhrikedici bəyanatları dəstəkləyib.

Mnatsakanyan bu haqda İrəvanda uruqvaylı həmkarı Rudolf Nin Novoa ilə keçirdiyi brifinq zamanı danışıb.

Paşinyan avqustun 5-də Xankəndidə demişdi: "Artsax (Dağlıq Qarabağa verilən qondarma ad) -Ermənistanın ayrılmaz tərkib hissəsidir, nöqtə".

Mnatsakanyan isə beynəlxalq hüquq normalarına zidd olaraq, Paşinyanın məlum sərsəmləməsini açıq formada dəstəkləyib: "Ermənistanın Baş naziri Ermənistanın mövqeyini dəqiq formalaşdırıb. Stepanakertdə deyilənlərə nəsə əlavə etməyə ehtiyac yoxdur".

*"Hesab edirəm ki, bu, beynəlxalq hüquqa qurumun açıq-aşkar hörmətsizliyidir"*

Bu, açıq-aşkar, bir ölkə rəsmisinin digər ölkənin ərazisinin qəsb edilməsinə haqq qazandırmasıdır. Ancaq, nədənsə, Qarabağ münaqişəsinin tənzimlənməsində vasitəçilik missiyasını öz üzərinə götürən ATƏT buna heç bir reaksiya vermir.

Məsələyə münasibət bildirən "İki Sahil" qəzetinin baş redaktoru Vüqar Rəhimzadənin sözlərinə görə, son baş verənlər bir daha ATƏT-in ikili standartlardan çıxış etdiyini əyani şəkildə ortaya qoydu: "ATƏT zaman-zaman ikili standartlardan çıxış edərək ədalətsiz mövqe ortaya qoyub. Bu da sözügedən qurumun növbəti yanlış yanaşmasıdır. Adi bir məsələni görürsən ki, şişirdib ona tez münasibət bildirirlər. Ancaq prinsipial əhəmiyyət kəsb edən məsələləri görməzdən gəlirlər. Ümumiyyətlə, ATƏT-in Minsk Qrupu həmsədrləri regiona turist kimi səfər edirlər. Necə deyərlər, yeyib-içirlər və sonra geri dönürlər. Faktiki olaraq, heç bir qətiyyət, prinsipiallıq nümayiş etdirmirlər. Ona görə də ATƏT-dən ədalət gözləmək müəyyən mənada yersizdir.

Baxın, Paşinyan Xankəndiyə səfər edərək sərsəm bəyanatlarla çıxış etdi, amma ATƏT buna heç bir reaksiya vermədi. Hansı ki, qurum buna hansısa formada reaksiya verməyə borclu idi. Ancaq nə Paşinyanın, nə də Mnatsakanyanın sərsəm fikirlərinə heç bir reaksiya verilmədi. Ona görə də ATƏT-in bu susqunluğunu qətiyyətlə pisləyirəm. Hesab edirəm ki, bu, beynəlxalq hüquqa qurumun açıq-aşkar hörmətsizliyidir".

***Vidadi ORDAHALLI***

# Sosial internet şəbəkələri saxta "qədim erməni dövlətçiliyi" barədə yalanlarla doludur

**Tarixi saxtalaşdıranların cəzasını gec-tez tarix özü verir. Dünya tarixinə əl uzadan, qədim dövlətlərə və onların ərazilərinə iddia edən ermənilər zaman-zaman "Böyük Ermənistan" xülyası ilə yaşayıblar, bu gün də bu çürük məqsədin ardınca sürünürlər. Cənubi Qafqazın "qara yarası" olan ermənilər özlərini ən qədim "xalq", "xristianlığın sütunu" adlandırmaqdan nə usanırlar, nə də bezirlər.**

Bütün dünyanın baş bəlasına çevrilən bu toplumun özlərindən uydurduqları "dövlətləri" bir deyil, beş deyil. Gah qədim "dövlətləri"nin İran, gah Azərbaycan, gah Türkiyə, gah ön Asiya, gah da uzaq Afrikada olduğunu iddia etmək sərsəmlik olsa da, onlar bunu həqiqət kimi qəbul edirlər. Bu azmış kimi, bunu məqalələr, nəşrlər və elektron kitablar şəklində internet resurslarında yerləşdirirlər. "Qədim Ermənistan" haqqında hazırladıqları mətnləri müxtəlif dillərdə internet resurslarında yerləşdirən ermənilər bununla özləri "dövlətçilik" sahibi kimi təqdim edirlər. Bu barədə internetdə kifayət qədər Azərbaycan dilində məlumatlar da var. Mətnlərdən açıq görünür ki, bu saxta məlumatları yazanlar Azərbaycan dilinin incəliklərinə elə də bələd deyillər. Çünki mətnlərdə bəs deyincə orfoqrafiya, üslub, ifadə səhvləri var. Ermənilərin seçdiyi yeni təbliğat üsulu həqiqətən də ürək bulandırır. Amma bununla belə, bu bizə əsas verir ki, mövcud vəziyyətə qarşı səfərbər olaq.

Yaxşı, həqiqətən də tarixdə Ermənistan dövləti olubsa və o, ön Asiyada, Dəclə və Fərat çayları arasında yerləşibsə, bəs nə üçün ermənilər o dövlətlərini bərpa etmək uğrunda mübarizə aparmır, Azərbaycan torpaqlarına qarşı ərazi iddiaları qaldırır, torpaqlarımızın 20 faizdən artıq hissəsini hələ də işğalda saxlayır, tarixi dədə-baba yurdumuz olan Qərbi Azərbaycanda Ermənistan adlanan dövlət yaradıblar? Ön Asiyada dövlətləri olubsa, gedib orada öz "dövlətləri"ni bərpa etsinlər.

İnternetə "Ermənilərin tarixinə dair qısa xülasə" adlı PDF variantında böyük bir mətn yüklənib. Mətnin kim tərəfindən yükləndiyi qeyd edilmir. Bu mətndə söhbət "qədim Ermənistan dövləti"ndən gedir. Mətnin girişində qeyd edilir ki, bizim eradan əvvəl, 331-ci ildə Makedoniyalı İsgəndərin Əhəmənlərin axırıncı şahı III Dara üzərində qələbəsinə qədər İranın tərkibində olan Ərməniyyə Makedoniya imperiyasına daxil oldu. "Böyük İsgəndərin ölümündən sonra onun ərazisi sərkərdələr arasında bölüşdürüldü. B.e.ə. 301-ci ildə axırıncı bölgüdə Ermənistan Solyusiya hökmranlığına daxil oldu. Dövlət Solyusiya mütləqiyyəti tərəfindən idarə olunurdu. Bu dövlət də b.e.ə. 189-cu ildə romalılar tərəfindən işğal edildi.

Müxtəlif mənbələr göstərir ki, Ermənistan solyusların hakimiyyətinə keçənə qədər fars əsilli 2 sərdar - Artaksiyas və Zariardıs tərəfindən idarə olunurdu. Romalıların qələbəsindən sonra onlar Roma Senatının himayəsinə keçdilər. Bu baxımdan arşakilərin öz dövlətçiliklərini bərpa etmək üçün mübarizələri canlandı. Aydınlır ki, II Mitridatın (123-88-ci illər, b.e.ə.) idarəçiliyi vaxtı arşaqilər müvəffəqiyyət qazandılar. Həmçinin, aydındır ki, arşakilər Armenianı tutdular, Romadan asılı olan erməni knyazı II Artavazdın oğlu Tiqranı girov götürdülər.

Tiqran atasının ölümündən (b.e.ə. 95 və ya 94-cü illər) sonra onun tərəfindən əldə olunmuş torpaqların bir hissəsini Mitridata verdi. Torpaqdan qalan hissəsində hökmranlıq etdi.

Roma imperiyasının daxili qarışıqlığından, onun, necə deyərlər, "sosial müharibələr" nəticəsində zəifləməsindən, digər tərəfdən, sakların hücumuna başları qarışmış arşakilərin vəziyyətindən istifadə edən Tiqran ətrafındakı feodal knyazlıqları birləşdirdi, onların ərazilərini genişləndirərək öz müstəqilliyini elan etdi. Öz mövcudluğunu saxlamaq naminə Pont çarı IV Mitridat Yevpatorla ittifaqa girdi. Bu ittifaq əvvəllər Tiqran üçün əlverişli idi, ancaq Mitridatın Roma ilə uğursuz müharibələri Tiqranın müstəqilliyinin itirilməsi ilə nəticələndi: b.e.ə. 66-cı ildə Roma sərkərdəsi Pompey Ermənistanı işğal etdi və Tiqran Roma dövlətinin nəzarətinə keçdi".

Mətnin digər hissələrində isə "Ermənistan dövləti"nin ərazisinin İran və Roma arasında bölüşdürüldüyü və s. yazılır. Bir sözlə, bu mətnlə tanış olduqda oxucuda belə təsəvvür yaranır ki, sən demə, ermənilər qədim dövlətçilik ənənələrinə malik olublar (?). Əslində isə belə deyil. Bu, başdan-başa, saxtakarlıq örnəyidir.




**Faiq Ələkbərli:** *"Tarixdə Ərməniyyə adlı bir ərazi, vilayət olub, həmin Ərməniyyənin isə haylara və indiki Ermənistan dövlətinə heç bir aidiyyəti, dəxli yoxdur"*

Bizi narahat edən məsələ odur ki, Azərbaycan və dünya tarixşünasları ermənilərin bu iddialarına lazımi səviyyədə cavab vermir və onların tarix səhnəsində oynadıqları rolu onlara xatırlatmır.

Azərbaycan Milli Elmlər Akademiyasının (AMEA) Fəlsəfə İnstitutunun əməkdaşı, tarix üzrə fəlsəfə doktoru Faiq Ələkbərli "Bakı-Xəbər"ə açıqlamasında dedi ki, hay tarixçilərinin ortaya atdığı "Qədim Ermənistan", yaxud "Böyük Ermənistan" məsələsi həqiqətə söykənmir və bu bir cəfəngiyyatdır. "Hay tarixçiləri özlərinə qondarma tarix və dövlət yaratmaqla və bu məsələni də müxtəlif dillərdə internet resurslarında yerləşdirməklə növbəti saxtakarlığa imza atırlar. Ümumiyyətlə, tarixdə Ərməniyyə adlı bir ərazi, vilayət olub. Həmin Ərməniyyənin isə haylara və indiki Ermənistan dövlətinə heç bir aidiyyəti və dəxli yoxdur. Sözügedən Ərməniyyə vilayəti Parfiyanın nəzarəti altında idi. Ermənilər həmin Ərməniyyəni nəzərdə tuturlar.

## "Ərməniyyəni idarə edənlər, idarəçiliyin başında duranlar türk mənşəli arşakilər idilər"

Ərməniyyəni idarə edənlər, idarəçiliyin başında duranlar türk mənşəli arşakilər idilər. Arşakilər sonrakı dönəmlərdə xristianlığı qəbul etdilər. Eyni zamanda, Ərməniyyə adlandırılan arşakilər sülaləsi ərsaklar idi. Yəni Sak türkləri. Onlar qıpçaq türkləri idilər. Bildiyimiz kimi, albanlar da, ərsaklar (qıpçaqlar) da xristianlığı qəbul etdilər. Ermənilərin isə nə Ərməniyyəyə, nə də o sülaləni idarə edən ərsaklara heç bir aidiyyəti yoxdur. Çünki bildiyimiz haylar özlərini hind-Avropa mənşəli hesab edirlər. Amma ərsaklar isə türk mənşəli idilər. Ona görə də ermənilərin Ərməniyyəni "Ermənistan" adlandırması və bunu kitablarda, internet resurslarında yerləşdirməsi tamamilə cəfəngiyyat və bir erməni uydurmasıdır. Onlar bununla tarixlərini qədimləşdirmək istəyirlər. Buna görə də istər Parfiya, istərsə də Midiya dönəmində olan türk mənşəli dövlətləri, sülalələri, Midiyaya bağlı ayrı-ayrı vilayətləri özlərinə aid edirlər. Bu cür cəfəngiyyatlar hay tarixçiləri tərəfindən 18-ci, 19-cu əsrlərdən formalaşdırılmağa başlayıb, bu gün də davam etdirilir".

F.Ələkərli qeyd etdi ki, bəzi tarixçilər səhvən Albaniyanın, indiki Azərbaycanın qonşuluğunda "Ermənistan"ın olduğunu uydururlar. Onun sözlərinə görə, o dövrdə tarixdə Ermənistan yox, ermənilərə aidiyyəti olmayan Ərməniyyə dövləti mövcud idi. "Sonrakı dövrlərdə, xüsusən də Çar Rusiyası işğalından sonra bizim ölkəyə, ümumiyyətlə, Cənubi Qafqaza köçürülən ermənilər qıpçaq türklərinin tarixinə, mədəniyyətinə qarşı iddia irəli sürməyə və ona sahib çıxmağa başladılar. Ermənilərin internet üzərindən həyata keçirdikləri saxtakarlıq, cəfəngiyyat dolu təbliğatı məhvə məhkumdur və bu öz nəticəsini verməyəcək. Onların məqsədi "Ermənistan dövləti"ni qədimləşdirmək cəhdləri ilə bağlıdır, halbuki, nə Cənubi Qafqazda, nə də başqa yerdə Ermənistan adlı dövlət olmayıb" - deyə F.Ələkbərli qeyd etdi.

***İradə SARIYEVA***

# Anormal bioloji varlıqdan şübhələnən kənd camaatı da ilk olaraq polisi köməyə çağırdı

**Bu gün Azərbaycan polisi, sözün həqiqi mənasında, xalqın güvənc yerinə çevrilib. Ailədaxili münaqişədən tutmuş, təbii hadisələrə qədər insanlar üzləşdikləri hər bir problemə görə ilk olaraq polisə üz tuturlar. Bu da insanların polisə bəslədiyi inam və etibarın göstəricisidir.**



***Şəmsəddin Əliyev:*** *"Harada vətəndaşların həyatına, sağlamlığına, dövlətçilik və konstitusion quruluş əleyhinə, təbiətin mühafizəsinə bir qərəz, bir təhlükə varsa, mütləq polis oradadır, xalq bilir ki, polis onu qoruyur"*

Sirr deyil ki, ölkəmizdə ictimai asayişin qorunmasında, təhlükəsizliyin, sabitliyin təmin olunmasında polisin müstəsna rolu var.

Doğrudur, bəzən Azərbaycan polisini ləkələmək, onun fədakar əməyini kölgəyə çəkmək istəyində bulunanlara da rast gəlinir. Lakin belələrinin apardığı uğursiz təbliğata, qarayaxmaya qətiyyən xalqımız əhəmiyyət vermir və dar günündə polisə əl uzadır, polis də ona uzanan əlləri havada qoymur, insanların dadına çatır. Elə bir təhlükə doğuran, yaxud təhlükəli olduğu şübhə doğurmayan hadisələr yoxdur ki, orada polisin müdaxiləsinə, dəstəyinə ehtiyac olmasın. Miqyasından, motivindən asılı olmayaraq, bütün şübhəli hadisələrin zərərsizləşdirilməsində əsas rolu polis oynayır. Bu da, dediyimiz kimi, birbaşa insanların polisə bəslədiyi güvənc, inam və etimadla bağlıdır.

Uzağa getməyək. Elə Ucar rayonunun Çiyni kəndində baş verən hadisəyə diqqət yetirək. Mətbuatda gedən məlumata görə, Çiyni kəndinin sakinləri bir neçə gündür qəribə varlıqla üzləşdiklərini deyirlər. Kənddə peyda olan əcaib varlıq insanları təşvişə salıb. Kənd sakinləri iddia edirlər ki, bir neçə gündür kənddə qəribə varlıq ortaya çıxıb. Xüsusən də gecələr həyətlərə girir, küçələrdə insanların qabağına çıxır. İnsanlar başdan ayağa tüklü olan bu canlının nə olduğunu müəyyən edə bilmirlər. O həm də çox sürətlə qaçır. Sakinlər deyirlər ki, onlar ehtiyat etdiyindən, gündüzlər əllərində ağac parçaları ilə gəzirlər. Onların sözlərinə görə, naməlum varlıq hündür divarlara da dırmaşır. Sakinlər bununla bağlı polisə də müraciət ediblər. Rayon Polis Şöbəsindən mətbuata verilən məlumata görə, kəndə polis əməkdaşları cəlb olunublar. Gecə saatlarında da kənddə yoxlamalar aparılır. Çiyni kənd icra nümayəndəsi Vüqar Zeynalov da bildirib ki, vətəndaşlarla söhbətlər aparılıb. Onlara gecə saatlarında tək gəzməmələri tövsiyə olunub.

Göründüyü kimi, insanlar sözügedən şübhəli varlıqla bağlı başqa qurumlara deyil, birbaşa daha çox inandığı, təhlükəsizliklərinin təminatına əsas verən polisə üz tuturlar.

Azərbaycan polisi xalqın etibarını, inamını necə qazanıb?

"Polisə Dəstək" İctimai Birliyinin sədri, hüquqşünas Şəmsəddin Əliyev "Bakı-Xəbər"ə bildirdi ki, 100 yaşlı Azərbaycan polisi yarandığı gündən xalqımızın yanında olub və onun etimadını qazanıb, inam, güvənc yerinə çevrilib. "Əvvəla Azərbaycan polisinin Azərbaycan dövlətçiliyi qədər böyük tarixi var. Artıq biz polisin 100 illiyini qeyd etdik. Müasir Azərbaycan polisinin qarşısına qoyulan vəzifə və funksiyalar öz mənbəyini 100 il bundan əvvəl alıb. Hər dəfə təhlükəsizlik təmin olunarkən, ictimai qaydalar mühafizə edilərkən, ətraf mühit qorunarkən, hətta vətənin müdafiəsindən söhbət gedərkən burada polis əməkdaşlarının adları ön cərgələrdə çəkilir. Polis əməkdaşları arasında canını vətənə fəda edənlər də az olmayıb. İnsanların təhlükəsizliyini təmin etmək polisin əsas işidir və polislərimiz də bu işin öhdəsindən yüksək peşəkarlıqla gəlirlər. Harada vətəndaşların həyatına, sağlamlığına, dövlətçilik və konstitusion quruluş əleyhinə, təbiətin mühafizəsinə bir qərəz, bir təhlükə varsa, mütləq polis oradadır, xalq bilir ki, polis onu qoruyur. Ona görə də baş verən istənilən hadisə zamanı insanların ilk yadına düşən polis olur. İnsanlar polisə güvəndikləri üçün hər hansı bir təhlükə, şübhəli hadisə ilə bağlı ilk olaraq polisə üz tuturlar. Vətəndaşlar hətta ən kiçik bir problemə görə polisə müraciət edirlər. Vəhşi heyvanların hücumundan tutmuş, şübhəli hadisələrə qədər baş verən hadisələr zamanı insanların dadına polis çatır. Bu baxımdan da, Ucarda sakinləri təşviş içində saxlayan anormal varlıqla bağlı şübhələrin aradan qaldırılması üçün camaat polisə üz tutub. Çünki kənd camaatı inanır ki, polis istənilən təhlükəni aradan qaldıra bilir. Əminəm ki, polis sakinləri əndişədə, təşvişdə saxlayan məsələnin aradan qalxmasına nail olacaq".

*"Azərbaycan polisi xalqın inam və etimadını öz yüksək peşəkarlığı, fədakarlığı ilə qazanıb"*

**Ş.Əliyev qeyd etdi ki, bu gün polis Azərbaycan xalqının təhlükəsizliyini təmin edən güvənc yeridir, o, təhlükəsizliyin təmin olunmasına zəmanət verən bir qurumdur, orqandır. "Azərbaycan polisinə yalnız Azərbaycan vətəndaşları inam bəsləmir, həmçinin, ölkəmizdə yaşayıb işləyən əcnəbilər də, xarici diplomatik korpus təmsilçiləri də, turistlər də Azərbaycan polisinə inam bəsləyir, onu özünə güvənc ünvanı bilirlər. Hesab edirəm ki, ən çətin məqamlarda polisin xalqın yanında olması, xalqın polisə xoş münasibət bəsləməsi bəzi sosial şəbəkələrdə polisə qarşı zərrə boyda qarayaxma təbliğatını tamamilə heçə endirir. Azərbaycan polisi xalqın inam və etimadını öz yüksək peşəkarlığı və fədakarlığı ilə qazanıb" - deyə Ş.Əliyev vurğuladı.**

***İradə SARIYEVA***

**Dünya birjalarında neftin son qiymət dəyişiklikləri ekspert dairələrində bu prosesin nə qədər davam edəcəyinə dair müxtəlif fikirlərin səslənməsi ilə müşayiət edilməkdədir. Hazırda qiymətlərin sürətlə aşağı düşməsi fonunda hesab edilir ki, burada ABŞ-ın mövqeyi prosesə birmənalı şəkildə təsir göstərib.**

# Neftin qiymət sıçrayışları gəlir - Azərbaycan neftdən daha çox qazanacaq




Belə ki, "qara qızıl"ın qiyməti ABŞ-ın Çindən idxal olunan məhsullara əlavə rüsumların tətbiq olunacağını açıqlaması fonunda ucuzlaşır.

Neftin qiymətinin aşağı düşməsi fonunda OPEC ölkələri gələn ay Əbu-Dabidə keçiriləcək iclasda neft bazarının sabitləşdirilməsinə dair addımlar atmağa hazırlaşır. Birləşmiş Ərəb Əmirliklərinin energetika naziri Suheyl əl-Mazruinin sözlərinə görə, komitənin iclasında nazirlər bazardakı mövcud vəziyyəti müzakirə edəcək, balansı və sabitliyi dəstəkləmək üçün tövsiyələr işləyib hazırlayacaqlar. OPEC-in müdaxiləsindən sonra ABŞ-ın "IHS Markit" bazar araşdırmaları təşkilatı neftin bir barrelinin qiymətinin 60-70 dollar arasında qalacağını proqnozlaşdırır. Neft analitiki Spenser Velç bu xüsusda qeyd edir: "Qara qızıl"ın qiyməti ABŞ-ın Çindən idxal olunan məhsullara əlavə rüsumların tətbiq olunacağını açıqlaması fonunda kəskin ucuzlaşıb. Yanvardan bəri qiymət 60-70 dollar aralığında daha balanslı bir şəkildə dəyişirdi. Qlobal iqtisadiyyatın zəifləməsi qiyməti aşağı salan amildir. Biz neftin qiymətinin 60-65 dollara yüksələcəyini düşünürük. Neftə artan tələbat dövrü yaşayırıq. OPEC və tərəfdaşları isə istehsalı azaltmaqda davam edir. Neft bazarı sərtləşir və qiymət hətta bir barrel üçün 60-70 dollar arasında dəyişəcək".

Qeyd edək ki, hazırkı qiymətlər neft satışından böyük gəlirlər əldə edən Azərbaycan üçün hansısa ciddi təhdid yaratmır. Çünki ölkəmizdə neftin satış qiyməti 60 dollardan hesablanır. İlin ötən dövrü ərzində isə Azərbaycan neftinin orta satış qiyməti 66 dollar təşkil edib. İlin sonuna kimi də vəziyyətin belə qalması gözlənir. Digər tərəfdən, dünya mediasında yazılanlardan belə bəlli olur ki, ABŞ-da baş verən olaylar neftin yaxın tezlikdə qiymətində böyük sıçrayışa səbəb ola bilər. Rusiyanın "RİA Novosti" portalı yazır ki, əslində ABŞ-da azalan neft ehtyiatları, Vaşinqtonun bütün cəhdlərinə rəğmən, nefti fantastik dərəcədə bahaladıra bilər: "ABŞ Enerji Nazirliyi gözləyir ki, sentyabrda ABŞ-ın gündəlik neft hasilatı 8,7 milyon barrelə çatacaq, Perm hövzəsi isə sutkada 75 min barel neft verəcək. Neftçilər bu göstəriciyə artıq qazılmış, lakin istifadə olunmamış quyuların hesabına nail olmaq istəyirlər. İyulda ölkənin neft yataqlarında qazma qurğularının sayının 10 faiz (1078-dən 969-a) azalması bunu deməyə əsas verir. "Vygon Consulting" şirkətinin konsultantı Yekaterina Kolobkova deyir: "Amerikanın neft operatorları qiymət "siqnallarına" kifayət qədər tez bir şəkildə reaksiya verirlər: 2018-ci ilin oktyabrından 2019-cu ilin yanvarınadək neft kotirovkalarında müşahidə olunan azalma, ola bilər ki, şirkətləri daha çox qənaətcil olmağa, o cümlədən qazma qurğularının kirayəsində qənaət etməyə təşviq edib".

Qeyd edək ki, həddindən artıq yüklənmiş boru xətləri sistemi Perm hövzəsində şist neftinin hasilatını artırmağa mane olan əsas faktorlardan biridir. Lakin gələn il ölkənin sahillərində yerləşən terminallara neft daşıyacaq yeni magistrallar işə düşəcək. "Citi Group" şirkətinin analitikləri əmindirlər ki, bu, Amerikanın neft ixracını əhəmiyyətli dərəcədə artırmağa imkan verəcək. Digər ekspertlər, o cümlədən "Bank of America" bankının analitikləri isə hesab edirlər ki, şist neft istehsalçıları bu yeni magistrallardan tam şəkildə istifadə edə bilməyəcəklər. "Wood Mackenzie" şirkətinin analitiklərinin fikrincə, uzunmüddətli perspektivdə Perm hövzəsində neft hasilatı narahatlıq yaradır: orada neftlə birlikdə suyun daha da çox çıxdığı müşahidə olunur. Bu isə yatağın ehtiyatlarının tükənəcəyinin ilk əlamətidir. "BP" şirkətinin sonuncu statistik hesabatında qeyd edilir ki, ABŞ-ın tədqiq edilmiş neft ehtiyatları son iki il ərzində 61,2 milyard barrel səviyyəsində qalıb. Müqayisə üçün, Rusiyanın neft ehtiyatları 106,2 milyard barreldir. İranda isə bu rəqəm 155,6 milyard barrel, Səudiyyə Ərəbistanında - 297,7 milyard barrel, Venesuelada - 303,3 milyard barrel təşkil edir. Amerikanın bütün neft ehtiyatları bir anda hasil edilsə, bu, dünyanın neftə olan bütün tələbatını (36,5 milyard barrel) yalnız iki il, ABŞ-ın öz tələbatını isə (illik 7,5 milyard barrel) yalnız səkkiz il ödəməyə bəs edəcək. Buna baxmayaraq, amerikalılar sürətlə istehsalı artırırlar. Yalnız keçən il ərzində onlar hasilatı 16,6 faiz artırıblar (müqayisə üçün Rusiyada bu rəqəm 1,6 faiz, Səudiyyə Ərəbistanında isə 3,3 faiz təşkil edib). "Goehring & Rozencwajg" şirkətinin analitikləri bildirirlər ki, Amerikanın üç əsas yatağında neft hasilatı pik həddə, yəni sutkada 10 milyon barrelə səkkiz ildən sonra çatacaq. Bundan sonra isə hasilat sürətlə aşağı düşəcək.

Lakin bütün bunların baş verməsi üçün sərmayədarların şist neftinə olan marağı kəskin şəkildə artmalıdır. Şist neft sənayesi ona görə inkişaf edir ki, bu sahəyə "Chevron" və "Exxon Mobil" kimi neft sənayesi nəhəngləri milyardlarla dollar sərmayə qoyur. Bu onlara, hələ ki, yalnız itki verir, lakin sərmayədarlara söz veriblər ki, tezliklə onlar gəlir əldə edəcəklər. Təəssüf ki, bu vədlər yerinə yetmir: "Reuters" xəbər verir ki, "Exxon" şirkətinin rüblük mənfəəti keçən illə müqayisədə 21 faiz, xalis mənfəəti isə hər səhmə görə 0,73 dollaradək düşüb. 2018-ci ilin eyni dövrü ərzində neft sənayesi nəhənginin xalis mənfəəti hər səhmə görə 0,92 dollar təşkil edib.

On il ərzində 40 nəhəng şist neft şirkəti bu sənayenin layihələrinə qazandıqlarından 200 milyard dollar çox yatırıblar. Sərmayədarlar isə tədricən bu sənayeni maliyyələşdirməkdən imtina edirlər - şist neft hasilatçıları keçən il 2017-ci il ilə müqayisədə iki dəfə az sərmayə ala biliblər. Amerikanın "Marathon Oil" neft və qaz şirkətinin baş direktoru Li Tilman məsələ ilə bağlı deyib: "Bu sənaye son 10 il ərzində sərmayədarların etimadını tamamilə itirib". Digər yandan isə şist neft aktivlərindən imtina edildiyi müşahidə olunur. Belə ki, keçən ilin fevralında Avstraliyanın "BHP Billiton" şirkəti ABŞ-ın şist hövzələrinə 20 milyard dollar həcmində sərmayə qoyuluşunu "böyük səhv" adlandıraraq aktivlərini, o cümlədən Perm hövzəsindəki aktivlərini satmağa başlayıb". Məhz bu vəziyyətdə hesab edilir ki, ABŞ-da neft sənayesinə yatırımların azalması bu məhsulun qiymətini elə bu il ərzində əhəmiyyətli dərəcədə artıra bilər. Digər tərəfdən, Azərbaycanın da daxil olduğu OPEC+ formatının fəaliyyəti də elə gələn aydan neftin qiymətlərində yeni yüksəlişlər vəd edir. İran ətrafında gərginləşən vəziyyət, Liviyada. Venesuelada, İraqda baş verənlər də qiymətlərə əsaslı surətdə təsir edir.

***Nahid SALAYEV***

**Azərbaycan ali məktəblərində ödənişli təhsil alan tələbələrin bir sıra hallarda təhsil haqqını birdəfəlik ödəmədikdə ciddi problemlərlə qarşılaşdığı məlumdur. Hətta əlaçı tələbələr də belə çətinliklərlə üzləşirdi. Təhsil haqqını müəyyən olunmuş dövr ərzində ödəyə bilməyən tələbələrin ali məktəblərdən qovulması kimi halların da baş verdiyi gizlin deyil.**

*”Bu, ali təhsilin əlçatanlığı və əhatə dairəsinin genişləndirilməsinə, inkişaf etməsinə, rəqabət qabiliyyətinin artırılmasına ciddi şəkildə təsir göstərəcək”*

# Nazirin təhsil haqları ilə bağlı universitetlərə tövsiyəsi tam yeni mərhələ aça bilər

## **Kamran Əsədov:** *”Təhsil Nazirliyi tərəfindən ali məktəblərə göndərilən tövsiyə olduqca müsbət bir addımdır”*



Bu da sözsüz ki, həmin tələbələr və onların valideynləri tərəfindən narazılıqla qarşılanırdı.

Təhsil naziri Ceyhun Bayramovun ali təhsil müəssisələrinin rəhbərlərinə verdiyi tapşırıq tələbələrin narahatlığına artıq son qoyub. Belə ki, Təhsil Nazirliyinin İctimaiyyətlə əlaqələr sektorunun müdiri Cəsarət Valehovun mətbuata verdiyi məlumata görə, nazirliyin kollegiyasının qərarına əsasən, ali təhsil müəssisələrinin rəhbərlərinə tapşırılıb ki, ödənişli təhsil alan tələbələrin təhsil haqlarını təhsil aldığı müddətdə yarımilliklər üzrə ödənilməsinə şərait yaratsınlar.

Məsələni şərh edən tanınmış təhsil eksperti Kamran Əsədov "Bakı-Xəbər"ə bildirdi ki, nazirin bu tapşırığı bu sahədə yaşanan mövcud problemin aradan qalxmasına səbəb olacaq. "İlk növbədə qeyd etmək istəyirəm ki, tələbələrdən təhsil haqqını birdəfəlik ödəməyi tələb etmək düzgün deyildi. Ödəniş hissə-hissə olmalı idi. Çünki valideynlərin vəziyyətini nəzərə almaq lazımdır. Təcrübə gösrərir ki, tələbələr imtahanlara buraxılmırlar və universitetdən xaric olunurlar. Azərbaycanda təhsil haqlarının ödənilməsi dünya təcrübəsindən fərqlidir. Dünyada tələbələr təhsil haqqını birinci kursdan sonuncu kursa qədər hissələrlə ödəmək imkanına malikdirlər. Son 5 il ərzində ölkəmizdə 7000 tələbə təhsil haqqını ödəyə bilmədiyi üçün təhsilini yarımçıq qoyub. Bundan başqa, 1992-2015-ci illər ərzində ali məktəblərdən 40 minə yaxın tələbə xaric edilib. Ödənişli əsaslarla oxuyan tələbə təhsil haqqını ödəməlidir. Bu, bütün dünyada belədir. Müvafiq vəsaiti ödəmək üçün imkanı olmayan tələbə müxtəlif variantlardan yararlana bilir. Kimisi hər hansı imkanlı şəxslərin hesabına oxuyur. Yəni tələbələrin imkanlarını, potensialını görən imkanlı şəxslər onların təhsil haqqını qarşılayır. Eləsi də var çalışdığı şirkətin vasitəçiliyi ilə bu problemi həll edir.

**O, məzun olduqdan sonra isə həmin şirkət kadr kimi potensialından faydalanır. Gənclərin bir qismi isə orta məktəbi bitirdikdən sonra işləyib, gələcəkdə alacaqları təhsil üçün pul yığırlar. Ona görə də Təhsil Nazirliyi tərəfindən ali məktəblərə göndərilən tövsiyə olduqca müsbət bir addımdır. Bu, ali təhsilin əlçatanlığı və əhatə dairəsinin genişləndirilməsinə, inkişaf etməsinə, rəqabət qabiliyyətinin artırılmasına ciddi şəkildə təsir göstərəcək" - deyə K.Əsədov qeyd etdi.**

***İradə SARIYEVA***

**Sosial şəbəkələrdə Bakının dörd rayonunun birləşdiriləcəyi barədə məlumat yayılıb. Məlumatlarda qeyd olunur ki, paytaxtın Səbail, Yasamal, Nəsimi və Nərimanov rayonları birləşdirilərək Mərkəzi rayon yaradılacaq.**

# Bakının Mərkəz adlı yeni rayonu - 4 rayon ləğv oluna bilərmi...

## **Elbay Qasımzadə:** *”Dörd rayonun birləşdirilməsində məqsəd Bakının tarixi mərkəzinin qorunub saxlanılmasıdır”*



Qeyd edək ki, bir müddət öncə Azərbaycan Memarlar İttifaqı İdarə Heyətinin sədri Elbay Qasımzadə Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyevanın mədəniyyət və incəsənət xadimləri ilə görüşündə belə bir təkliflə çıxış etmişdi. Elbay Qasımzadənin təklifində paytaxtın tarixi mərkəzinin sərhədlərinin müəyyənləşməsi, Bakının tarixi mərkəzləri əsasında xüsusi ərazi vahidinin yaranması məsələsi öz əksini tapmışdı. Bu məsələ yenidən aktuallaşıb. Bakının dörd rayonunun birləşərək Mərkəz rayon olacağı bildirilir.

Azərbaycan Memarlar İttifaqı İdarə Heyətinin sədri Elbay Qasımzadə bildirdi ki, bununla bağlı hazırlanan təklif Prezident Administrasiyasına təqdim olunub. Dörd rayonun birləşdirilməsində məqsəd Bakının tarixi mərkəzinin qorunub saxlanılmasıdır: "Bu gün Bakının tarixi mərkəzi dörd inzibati rayonun arasında bölünüb. Bunlar Səbail, Yasamal, Nəsimi və Nərimanov rayonlarıdır. Nə qədər bu rayonlara mərkəzdən rəhbərlik edilsə də, təbii ki, dörd rəhbərin, dörd komandanın hərəsinin bu işə baxışı müxtəlifdir. Mən təklif etdim ki, sərhədlər müəyyənləşsin və Bakının tarixi mərkəzi əsasında xüsusi ərazi vahidi yaransın. Mərkəzi rayon təcrübəsi başqa paytaxtlarda da var".

Həmsöhbətimiz onu da vurğuladı ki, paytaxtda tarixi qədim olan tikililərin yanında yeni şüşəli binaların inşası, qədim memarlıq tərzi ilə uyğunlaşmır: "Bakıda 19-cu əsrlərin axırında tikilən binaların yanından keçərkən, 20-ci əsrin ortalarında tikilən binalara yaxınlaşanda biz hiss etmirik ki, başqa bir dünyada başqa bir zəmanəyə gəlib çıxmışıq. Yəni bu tikililər biri-biri ilə vəhdət yaradıb. Bakının üstünlüyü də bundadır. Başqa tarixi şəhərlərə, məsələn, Avropanın mərkəzinə, paytaxt şəhərlərinə baxanda görürük ki, köhnə şəhərlər olduğu kimi qalıb, yanında isə onlara oxşamayan, uyğunlaşmayan, nə memarlıq tərzi ilə, nə də miqyası ilə uyğun gəlməyən, yeni-yeni şüşədən binalar tikilib. Mən həmin görüşdə belə bir təkliflə çıxış etdim ki, Bakının tarixi mərkəzinin sərhədləri müəyyənləşsin və onu Bakı Şəhər İcra Hakimiyyəti tərkibində ayrıca mərkəzi rayon kimi qəbul etsinlər".

***Günel CƏLİLOVA***

# Azərbaycanın kənd təsərrüfatı hansı islahatlar hesabına dirçəlib?

**Ölkənin ərzaq təhlükəsizliyi onun iqtisadi və milli təhlükəsizliyinin ayrılmaz hissəsidir. Odur ki, əhalinin ərzaq məhsulları ilə etibarlı təminatına dair dövlət proqramları qəbul edilib. Bu sənədlər dünya ərzaq bazarında müşahidə olunan qeyri-sabitliyin ərzaq məhsullarının qiymətinə təsirinin neytrallaşdırılmasına və ərzaq bazarının idxaldan asılılığının aradan qaldırılmasına xidmət edir.**

***Nicat Nəsirli:*** *"2019-cu ilin altı ayının yekunları deməyə əsas verir ki, artıq kənd təsərrüfatı dövlət üçün "yardımlar üzərində qurulmuş sosial sahə"dən aktivliyi ilə seçilən biznes sahəsinə çevrilməkdədir"*

*"Yaxın illər ərzində aqrar sektorda gəlirlilik səviyyəsini daha da yüksəldəcək"*



Bu gün Azərbaycanda aqrar sektorun inkişafı qarşıya qoyulan ən mühüm istiqamətlərdən biridir. Son illər bu sahədə görülən uğurlu işlər sayəsində ölkənin kənd təsərrüfatı xeyli inkişaf edib. Aqrar sektorun inkişaf etməsi istiqamətində su təchizatı yaxşılaşdırılır, istixanalar, anbarlar yaradılır və başqa bir çox işlər görülür.

Kənd təsərrüfatının inkişafı istiqamətində görülən işlər barəsində danışan aqrar sahə üzrə ekspert Nicat Nəsirli qeyd etdi ki, son illər ölkədə həyata keçirilən iqtisadi islahatlar, bunun fonunda aqrar sektorun dəstəklənməsi artıq makroiqtisadi göstəricilərin formalaşmasına öz təsirini göstərməkdədir: "Artıq ölkə başçısı səviyyəsində bu ilin 6 ayı ərzində aqrar sahədə 13 faizlik artımın əldə olunması elan edilib, kənd təsərrüfatının ÜDM-dəki payı 5,6-a çatıb. Ən böyük nəticələr bitkiçilikdə əldə edilib, təhlillər göstərir ki, xüsusi ilə son bir neçə ildə bu sahənin birbaşa və dolayı subsidiyalaşmağa cəlb edilməsi, idarəetmənin təkmilləşdirilməsi və digər tədbirlər bitkiçilikdə iqtisadi aktivliyin daha da artmasına təsir göstərib. İllər üzrə əkin dövriyyəsinə cəlb edilən torpaq sahələrinin artması, məhsuldarlıq göstəricilərinin yüksəlməsi bitkiçiliyin gəlirli biznes sahəsi kimi formalaşmasını müəyyən edib. Bütün dünyada olduğu kimi bizdə də bitkiçiliyin, əhalinin qidalanma payı və heyvandarlığın yem bazasının təmin olunmasında xüsusi payı var. Bu ilki göstəricilərə görə, bitkiçiliyin əkin sahəsi 1 milyon hektarı aşıb, bu cür iqtisadi aktivliyin artmasında məqsədli dövlət tədbirlərinin xüsusi rolu var".

Həmsöhbətimiz onu da vurğuladı ki, 2019-cu ilin altı ayının yekunları deməyə əsas verir ki, artıq kənd təsərrüfatı dövlət üçün "yardımlar üzərində qurulmuş sosial sahə"dən aktivliyi ilə seçilən biznes sahəsinə çevrilməkdədir. Yaxın illərdə əhalinin məşğuliyyətindən çıxmış pambıqçılıq, barama istehsalı, yem bitkilərinin əkininin bərpa olunması regionlarda məşğulluq səviyyəsinin yüksəlməsinə öz təsirini göstərməklə yanaşı, aqrar sektorda gəlirlilik səviyyəsini daha da yüksəldəcək".

***Günel CƏLİLOVA***

# Azərbaycan-ABŞ İkinci Kənd Təsərrüfatı Forumu Oklahomada keçiriləcək

**Oklahoma-Azərbaycan Kənd Təsərrüfatı Forumu 6-8 noyabr tarixlərində Oklahoma şəhərində keçiriləcək. Forum ən yaxşı təcrübələri bölüşmək və hər iki tərəfin iqtisadiyyat sektorunda tərəfdaşlıq və investisiya imkanlarını araşdırmaq üçün özəl sektordan olan mütəxəssis/nümayəndələr, kənd təsərrüfatı məhsulları istehsalçıları, habelə Oklahoma və Azərbaycanın dövlət sektorundan kənd təsərrüfatı sahəsində çalışan məsul şəxsləri bir araya gətirəcək.**




Bu, ABŞ və Azərbaycandan siyasətçiləri və kənd təsərrüfatı istehsalçılarını bir araya gətirən ikinci belə forumdur. Aprel ayında Çikaqoda keçirilən ilk belə forumda Azərbaycanın Kənd Təsərrüfatı Naziri İnam Kərimovun rəhbərliyi ilə 14 Azərbaycan şirkətinin nümayəndə heyəti və İllinoys ştatının 33 şirkətləri iştirak edib. Çikaqo forumu Azərbaycanın kənd təsərrüfatı sektoru və ABŞ-ın İllinoys ştatının fermer, aqrobiznes və istehsalçıları ilə əlaqələr yaratdı.

Oklahoma-Azərbaycan Forumu heyvandarlıq/maldarlığa xüsusi diqqət yetirərək, təsərrüfatın idarə olunması, nizamlanması və geniş çeşidli taxıl və məhsulların təbliğini əhatə edəcək. Oklahoma ABŞ-da çovdarın bir, mal əti üzrə isə ikinci ən böyük istehsalçıdır. Kənd təsərrüfatı dövlətin illik iqtisadiyyatının 7.1 milyard dollarını təşkil edir və kənd təsərrüfatı məhsullarının ixracı dövlətə ildə 1.9 milyard gəlir gətirir. Oklahoma ştatı və Azərbaycan Respublikası 2003-cü ildən etibarən ABŞ-ın Dövlət Tərəfdaşlıq Proqramı çərçivəsində əməkdaşlıq edir. Oklahoma Milli Qvardiyası və Azərbaycan Respublikasının Müdafiə Nazirliyi arasında uğurlu əməkdaşlıq kənd təsərrüfatı sahəsində əlaqələrin inkişafı üçün möhkəm zəmin yaratmışdır.

Oklahoma-Azərbaycan Kənd Təsərrüfatı Forumu Oklahoma Kənd Təsərrüfatı, Qida və Meşə Təsərrüfatı Departamenti, Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyi, ABŞ-ın Azərbaycandakı Səfirliyi, Azərbaycan Respublikasının Birləşmiş Ştatlardakı Səfirliyi və Amerikanın Azərbaycandakı Ticarət Palatası ilə tərəfdaşlıq çərçivəsində Birləşmiş Ştatlar-Azərbaycan Ticarət Palatası (USACC), Oklahoma Ticarət Departamenti və ABŞ-ın Beynəlxalq İnkişaf Agentliyinin (USAID) Azərbaycandakı missiyası ilə birgə təşkil olunub.

# "Qarabağ bizimdir" dediyi üçün qətlə yetirildi və Şuşa qəbiristanlığında dəfn edildi

**İlqar Ənvər oğlu Qurbanov 1973-cü ildə dekabr ayının 6-da Beyləqan rayon 2-ci Aşıqlı kəndində anadan olub.**

1991-ci ildə orta məktəbi bitirir və Azərbaycanın, Qarabağın ağır günlərində ordu sıralarına daxil olur. Boy-buxunu, nizam-intizamı ilə fərqlənən İlqar bir neçə rayonda döyüş yolu keçib. Qubadlı, Zəngilan, Ağdam, Ağdərə və Fizuli rayonlarında mərdliklə döyüşüb. İlqar Qurbanov düşmənin bir neçə obyektini və texnikasını məhv edir. 1993-cü ilin sentyabrında ayağından yaralanaraq mühasirədə qalan İlqar döyüş yoldaşları ilə bərabər düşmən tərəfindən girov götürülür. Girovluqda olan İlqar yenə də düşmənə öz sözünü deyir: Qarabağ bizimdir bizim olacaq. Hər zaman düşmənə sərt cavablar verən İlqar bir neçə ay sonra 1994-cü ildə qətlə yetirilir. İlqar Qurbanov girovluqda olan azərbaycanlılarımız tərəfindən müsəlman adəti ilə Şuşa qəbirstanlığında dəfn olunur. 1996-cı ildə Firudinov Murtuzanın təşəbbüsü ilə oxuduğu orta məktəbə İlqar Qurbanovun adı verilir. Məktəbin qarşısında büstü ucaldılır. Büstün açılışında məktəb direktoru, kənd ağsaqqalları, rayon rəhbərliyi bu təşəbbüsü alqışladıqlarını bildirirlər. Büstün aşılışı zamanı rayon icra hakimiyyəti təmsilçiləri çıxış edərək öz fikirlərini bildiriblər. Həmçinin büstün açılışında general Yaşar Aydəmirov və hərbiçilər iştirak edib. Bu işdə zəhməti olan rayon rəhbərliyinə dərin təşəkkürümüzü bildiririk. Şəhidlik ən uca zirvədir. Allah rəhmət eləsin.

*Sübhan ƏKBƏRZADƏ*

# İtkin düşən uşaqların sayı artır - azərbaycanlı uşaqların başına nə gəlir...

## *Kəmalə Ağazadə:* *"Uşaqların kimlər tərəfindənsə, xüsusilə də qaraçılar tərəfindən qaçırılması halları çoxalıb"*

**Dünyanın bütün uşaqları bir-birinə bənzəyirlər; öz ərköyün və şıltaq təbiətləri, məsum baxışları, şirin gülüşləri ilə… Onlar isə kimsəyə bənzəməzlər, naməlum qalan taleləri ilə.**

Elə uşaqlar var ki, onlar bir anın içində itkin uşaqlar siyahısına salınır. Açıqlanan statistik rəqəmlərə əsasən, Azərbaycanda axtarışda olan cinayətkarların, eləcə də itkin düşən uşaqların sayı artıb. Belə ki, 2000-ci illə müqayisədə ölkədə itkin düşən uşaqların sayı azalsa da, ötən il onların sayı 2017-ci illə müqayisədə artıb. 2018-ci il ərzində Azərbaycanda 964 (2017-ci ildə 914 nəfər) nəfər itkin düşüb ki, onların 136-sı 18 yaşadək uşaq olub. 2017-ci ildə itkin düşən uşaqların sayı 105, 2016-cı ildə 129, 2015-ci ildə 116, 2010-cu ildə isə 137 olub.

Qeyd edək ki, 2000 və 2005-ci illərdə Azərbaycanda itkin düşən uşaqların sayı daha çox olub. 2000-ci ildə 261, 2005-ci ildə 293 uşaq itkin düşüb.

Azərbaycanda uşaqların nə səbəbdən itkin düşdüyünü öyrənmək üçün mütəxəssislərə müraciət etdik.

Azərbaycan Uşaqlar Birliyinin sədri Kəmalə Ağazadə bildirdi ki, son 10 ildə ölkədə uşaq oğurluğu faktına rast gəlinməsə də, hazırda belə hadisələr baş alıb gedir: "Uşaqların kimlər tərəfindənsə, xüsusilə də qaraçılar tərəfindən qaçırılması halları çoxalıb. Mən hər dəfə deyirəm ki, bu roman tayfaları ilə mübarizə aparılmalıdır. Onların birlikləri tapılmalı və qarşısı alınmalıdır".

Həmsöhbətimiz onu da vurğuladı ki, valideynlər daim uşaqlarını diqqətdə saxlamalıdırlar. Ən çox da xüsusi qayğıya ehtiyac duyan uşaqları. Çünki bu tip uşaqlar qaraçı tayfasının diqqətini cəlb edir və hədə-qorxu ilə o uşaqlara istədiklərini etdirirlər.

Bu səbəbdən də xüsusi qayğıya ehtiyacı olan uşaqlar ümumiyyətlə nəzarətsiz qalmamalıdır. Valideyn məsuliyyətinin artırılması üçün işlər aparılmalıdır. Ehtiyatsızlıq səbəbindən onlarla uşaq bu gün yanıq şöbələrində yatır. Valideyn diqqəti tək anaların çiyninə yüklənməməlidir.

Burada atanın, nənənin, babanın, ailənin digər üzvlərinin də məsuliyyəti var. Bu halların qarşısını almaq üçün valideynlərə də cəza verilməli deyil ki?! Övladlarına qarşı qeyd-şərtsiz diqqətli olmalıdırlar".



K.Ağazadənin sözlərinə görə, problem valideynlərin uşaqları hədə-qorxu ilə "tərbiyə etmək" istəməsindən irəli gəlir: "Valideyn uşağını qorxudur, "ora getmə", "bununla danışma", "səni döyərəm" kimi ifadələr işlədir.

Belə təzyiqlər olmamalıdır. Onları sakit dildə başa salmaq lazımdır ki, yad insanlarla danışmaq olmaz. Tanımadığın insanlar nəsə təklif edəndə götürmə, yemə, dərhal anaya-ataya de. Bəzi valideynlər deyir ki, bəs iş-güc ucbatından daim uşağa nəzarət edə bilmir. Amma bu, həmin diqqətsizlik ucbatından yaşanan hadisəyə bəraət qazandıra bilməz. Körpələr bəzən böyüklərin kiçik bir səhvinin cəzasını ömür boyu çəkirlər. Belə olmaz".

*Günel CƏLİLOVA*

# "Soy" tarixi-etnoqrafik dərgisinin 7-ci sayı qədim türk xalqlarının etnoqrafik aləminə ayna tutur




**Bu gün ölkəmizdə tarixi-etnoqrafik nəşrlərin sayı çox olmasa da, yox da deyil. Belə jurnallar sırasında 2012-ci ildən tanınmış etnoqraf-jurnalist, tədqiqatçı Ənvər Çingizoğlunun baş redaktorluğu ilə nəşr olunan "Soy" dərgisinin öz yeri var.**

"Soy" tarixi-etnoqrafik dərgisinin 7-ci sayı işıq üzü görüb. Dərginin bu sayı Türk dünyasına mənsub olan qədim xalqların tarixi-etnoqrafik aləminə həsr edilib. "Soy"da genoloji oçerklər, ailə tarixçələri, soyluların portretləri, ünlülər, soylular, tarix, tarixçilər, etnoqraflar, numizmatlar, şərqşünaslar haqqında geniş məlumatlar verilir. Nəşrdə, həmçinin, qədim türk soylarından olan tuvalılar haqqında da diqqətçəkən cizgilər var. Olduqca maraqlı nəşr olan "Soy"un etnoqrafik düşüncənin formalaşmasında mühüm rolu var. Zəngin tarixi mənbələrə, məxəzlərə istinadən dərc olunan məqalələrdə türk tarixinin, etnoqrafiyasının ayrı-ayrı qatları açılır.

*İradə SARIYEVA*

№ 142 (4040) ■ Qiyməti: 40 qəpik

# BAKI XƏBƏR

16 AVQUST 2019-cu il

www.baki-xeber.com

## Rusiya kosmik yanacaqdoldurma məntəqəsi yaradacaq

**Rusiya kosmik enerji təminatı məntəqəsini yaratmaq niyyətindədir. Belə məntəqələr orbitə yaxın yerdə yerləşdiriləcək, müəyyən qrup robotların vasitəsilə peykləri enerji ehtiyatı ilə təmin edəcək.**

"Deyerler.org" bildirir ki, kosmik aparat (KA) şar formasında hazırlanacaq. Şarın yuxarı və aşağı yarımkürə hissəsində günəş batareyaları və fotoelektrik modullar yerləşdiriləcək. Robotun içərisində akkumulyatorlar və impuls enerji yükləyən aparatları yerləşdiriləcəyi bildirilir. Bu qurğuların vasitəsilə enerji yığımı və ötürülməsi mümkün olacaq. KA-nın iş fəaliyyəti, "Cospas-Sarsat" kiçik beynəlxalq axtarış-xilasedici aparatlarının, həmçinin internet ötürücü, video və radio əlaqə peyklərin fasiləsiz iş rejimini təmin etməkdən ibarət olacaq. Qeyd edildiyi kimi, enerji doldurma məntəqələrinin fəaliyyəti kosmik aparatların iş fəaliyyət vaxtını artırmış olacaq. Belə bir texnologiyanın vasitəsi ilə xərclərin də azaldılacağı qeyd edilir.

## Elan

Şəki şəhər sakini İbrahimov Məmməd Salam oğlunun adına verilmiş Daşınmaz Əmlakın Dövlət Reyestrindən çıxarış itdiyi üçün etibarsız sayılır.

Şəki rayonu, İncə kənd sakini Nəbiyev Nəbi Əbdürrəhim oğlunun adına verilmiş JN: 129 saylı torpağa mülkiyyət hüququna dair dövlət aktı itdiyi üçün etibarsız sayılır.

Əliyev Sərdar Şamil oğluna məxsus JN-0039 kod 40411058 torpağa mülkiyyət hüququna dair dövlət aktı itdiyi üçün etibarsız sayılır (ünvan: Şəki rayonu, Colaxlı kəndində yerləşən torpaq sahəsi).

Əliyev Etiram Yavər oğluna məxsus, Bakı şəhəri, Yasamal rayonu, Dadaş Bünyadzadə küçəsi, dalan 1, ev № 6 ünvanın RX № 0908816 HDQHDƏDR-dən çıxarışı itdiyi üçün etibarsız sayılır.

Talıbov Ağamusa Rəcəb oğluna məxsus, Bakı şəhəri, Yasamal rayonu, Xiyabani küçəsi, ev № 33, mənzil № 496 ünvanın 04.02.2009-cu il tarixli, 031089 nömrəli orderi itdiyi üçün etibarsız sayılır

Yusufov Yusufəli Heydər oğluna məxsus, Bakı şəhəri, Türkan kəndində yerləşən 188 nömrəli bağın (25 sot torpaq sahəsi, 15 dekabr 1969-cu il, 301) 17556 nömrəli müqaviləsi itdiyi üçün etibarsız sayılır.

Niftalıyev Rəşadət Telman oğluna məxsus, Abşeron rayonu, Mehdiabad qəsəbəsindəki 0.02 ha torpaq sahəsinin № 308013086031 çıxarışı itdiyi üçün etibarsız sayılır.

Quliyeva Cəvahir Saleh qızına məxsus, Bakı şəhəri, Türkan kəndində yerləşən 574 nömrəli bağın (25 sot torpaq sahəsi, 2 avqust 1968) 4487 nömrəli müqaviləsi itdiyi üçün etibarsız sayılır.

Tamrov İsrafil Qüdrət oğlunun adına, Türkan kəndində yerləşən 411 nömrəli bağın (25 sot torpaq sahəsi, 15 dekabr 1968-ci il, 301) 16205 nömrəli müqaviləsi itdiyi üçün etibarsız sayılır.

İvanenko Vladimir Nikolayeviç adına, Xaçmaz rayonu, Nabran kəndi, Gənclik küçəsində yerləşən Xaçmaz rayon Tİ və MHQ İdarəsi tərəfindən verilmiş 4-233A reyestr nömrəli vəsiqə, texniki pasport və JN-191 G kod 30216018 nömrəli torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

## "Azercell"in "Rəqəmsal Dünya bölgələrdə" layihəsinin yeni səfərləri

*"Azercell" Sumqayıt, İsmayıllı, Şamaxı, Qəbələ, Göyçay və Şəki bölgələrinin sakinləri ilə görüşüb*

**"Rəqəmsal Dünyanı Yarat" şüarı altında fəaliyyətinin yeni rəqəmsal dövrünə qədəm qoyan "Azercell Telekom" MMC ölkəmizin bölgələrini qarış-qarış gəzməyə davam edir.**

Bu dəfə müştəriləri üçün telekom sahəsinin ən son tendensiyalarını daha əlçatan etməyi hədəfləyərək, "Azercell" "Rəqəmsal Dünya bölgələrdə" adlı layihəsi ilə Sumqayıt, İsmayıllı, Şamaxı, Qəbələ, Göyçay, Şəkiyə səfər edib və 40 minə yaxın insanı bir araya gətirməyə müvəffəq olub. Dinamik və dəyişkən texnologiyaları tətbiq edib trendə çevirən şirkət, rəqəmsal savadlılıq səviyyəsinin artırılması və "Azercell"in yeni innovativ xidmətlərin tanıdılması məqsədilə Azərbaycanın 30-a yaxın şəhər və rayonunda bu layihənin keçirilməsini planlaşdırır.

Ölkədə mobil rabitə istifadəçilərinin əksəriyyəti tərəfindən seçilən "Azercell"in "Rəqəmsal Dünya bölgələrdə" layihəsi çərçivəsində insanların həyat tərzini rahatlaşdıran texnoloji yeniliklər və mobil qurğuların texniki imkanlarından istifadə edilməklə xidmətlərin əlçatanlığı nümayiş olunur. Bu tədbirlər silsiləsində bölgələrdə müxtəlif proqramlar, müsabiqələr, intellektual və əyləncəli oyunlarla yanaşı, interaktiv oyunlar da təşkil edilir, iştirakçılara hədiyyələr paylanır. Qeyd edək ki, "Rəqəmsal Dünya bölgələrdə" layihəsi çərçivəsində keçirilən bu tədbirlərə müvafiq icra hakimiyyətlərinin rəhbərliyi və nümayindələri də qatılıb.

Tədbirlərdə "Azercell"in himayəsi altında olan "İmzanı tanıt" layihəsi xüsusi guşə ilə təmsil olunur. Bölgələrimizin istedadlı şəxsləri öz əl işlərini burada nümayiş etdirirlər. Qeyd edək ki, iyun ayının əvvəlindən etibarən başlayan və hər kəsin rəğbətini qazanan bu sosial çağırış qısa müddət ərzində istedadına və bacarığına güvənən hər kəsi sosial şəbəkələrdə #imzanitanit "hashtag"ı altında toplamağa müvəffəq olub.

Eyni zamanda, Şəkidə təşkil olunan səfərlərə fəaliyyəti boyunca on minlərlə insana yardım edən "Azercell"in "Mobil Diş" və "Mobil Göz" klinikaları da qoşulub. 13 avqust tarixində "Azercell" şirkətinin rəsmi heyəti mobil klinikalarla birlikdə Şəki şəhər qarışıq tipli uşaq evini ziyarət edib. 60-a yaxın uşaq müayinə olunub və internat məktəbinin şagirdlərinə məktəb ləvazimatları hədiyyə edilib.

Qeyd edək ki, "Azercell Telekom" MMC ölkəni yeni bağlantı erasına hazır etmək məqsədilə şəbəkənin gücləndirilməsi istiqamətində bir sıra tədbirlər görüb. 4.5 milyon istifadəçinin seçimi olan "Azercell" şirkəti Azərbaycanın bütün bölgələrinin sakinlərini bərabər texnoloji imkanlarla təmin etmək, yüksək sürətli interneti sayəsində ən son innovasiyaları onların istifadəsinə vermək məqsədilə ölkə boyu 4G şəbəkəsini gücləndirib və genişləndirib. "Azercell" son yarımildə ölkədə telekommunikasiya sahəsinin inkişafına 63 milyon manatdan artıq vəsait yatırıb. Ümumilikdə, Bakı və Abşeron da daxil olmaqla, ölkənin 60-a yaxın bölgəsi 4G şəbəkəsinin əhatə dairəsindədir. Son yarımildə şirkət əhali əhatəsi dairəsində 86.2%, coğrafi ərazi əhatə dairəsində isə 61.4% yüksəlişə nail olub. Həmçinin, günlük LTE data istifadəsində 49.6%, LTE yükləmə və ötürmə sürətində isə 16%-dək artım qeydə alınıb.

Vurğulamaq istərdik ki, "Azercell"in yeni "Rəqəmsal Dünya bölgələrdə" layihəsi artıq Naxçıvan, Ordubad, Şərur, Quba , Qusar, Xaçmaz, Sumqayıt, İsmayıllı, Şamaxı, Qəbələ, Göyçay və Şəki kimi bölgələrdə baş tutub. Rəqəmsal dünyanın ən son yenilikləri daha əlçatan edən "Azercell"in yeni layihəsini avqust ayında öz bölgənizdə gözləyin!

Festivalın ən son məlumatları ilə tanış olmaq üçün "Azercell"in rəsmi "İnstagram" və "Facebook" səhifələrini izləməyi unutmayın!

Daha ətraflı məlumat üçün news@mcs.az ünvanına müraciət edə bilərsiniz.





**Qoç** - Gözləntilərinizin sayını və səviyyəsini bir qədər azaldın. Diqqətə layiq olan işə başlayaraq çalışın. İnformasiyanın təhlili, təcrübənin artırılması, qısa səfərlər üçün əlverişli gündür. Yaşam arealını qaydaya salın.



**Buğa** - Cari situasiyada doğru istiqaməti müəyyənləşdirin. Perspektiv məsələləri seçin, fəaliyyətinizi müxtəlifləşdirin. Çətin məsələləri həll edin, çoxdan bəri narazılığınıza səbəb olan yarımçıq işi başa vurun.



**Əkizlər** - Yorulubsunuzsa və yetərincə istirahət etmirsinizsə, maraqlandığınız, bəyəndiyiniz işlə məşğul olun. Lakin yeni planları gerçəkləşdirmək istəyirsinizsə, tələbatla qarşılaşacağınızı bilin.



**Xərçəng** - Eyni vaxtda bir neçə iş görməyə hazırlaşın. Poçt "yeşik"ləri, kabinetlər və telefon zənglərinin arasında vaxtınızı bölüşdürmək istəyirsinizsə, alınmayacaq. Hər işə gərəkli vaxtı ayırın.



**Şir** - Vurnuxma, problem və çətinliklərin az olmayacağı gündür. Yerinizdə olun, çağırışlara tez cavab verin. Reaksiyanız süst olmasın. Ehtiyac yaranarsa, sürətli qərar verin. Heç nəyi mürəkkəbləşdirməyin.



**Qız** - Təəssürat və xəbərlərin sürətlə dəyişməsinə rəğmən gün sizi sevindirəcək. Maddi məsələlərdə yaxşı perspektivlər var. Sadəcə, onları görərək dəyərləndirməyə çalışın. Ailədə mühüm müzakirə başlaya bilər.



**Tərəzi** - Mütəhərrik, aktiv, ünsiyyətə meyllі olun. Zərurət yaranarsa, alınan informasiyanı təhlil edin, rabitələrlə əlaqələri bərpa edin, məktublara cavab verin. Günün ilk yarısında formalaşan planlar gözlənilən nəticəni verəcək.



**Əqrəb** - Enerjili, qətiyyətli, əzmli olsun. Niyyətlərlə maraqlar sizi fərqli istiqamətlərə apardığından fikirlərdə qarışıqlıq yarana bilər. Gərginlik artır, başladığınız işi normal şəkildə başa vura bilmirsiniz.



**Oxatan** - Tərəfdaşlıq münasibətlərində yeniliklərin təşəbbüskarı olun. Qarşı tərəfi də daha aktiv davranmağa vadar edin. Yeni layihələr olacaq, amma onlar müzakirə və imkanların nəzərdən keçirilməsi mərhələsindədir.



**Oğlaq** - Günün ilk yarısı yetərincə effektiv deyil. Konkret nəticələr gözlədiyiniz layihə və ya işi planlaşdırmayın. Ünsiyyət və məlumatların alınmasında məhdudiyyətlərin sayını artırmayın.



**Dolça** - Bir qədər "nəfəs almaq", əldə olunmuş mövqelərdə möhkəmlənmək, cari işləri tələsmədən görmək olar. Qarşınızda duran məqsədləri dəyərləndirin, aldığınız təklifləri təhlil edin, planları yenidən nəzərdən keçirin.



**Balıqlar** - Mühüm qərarların qəbulunu şərtləndirməyən kiçik işlərə və qayğılara xüsusi diqqət yetirin. Başqasının əməllərinə görə məsuliyyət daşımayın, sənədləşdirmədə qaydaya riayət edin.

*Qoroskop Rusiya və Qərb astroloqlarının proqnozları əsasında hazırlanıb*

## 700 milyon işıq ili məsafəsində olan qara dəlik tapılıb

**Astronomlar rekord həcmində qara dəlik aşkar etmişdir. O, Yer kürəsindən 700 milyon işıq ili məsafəsində olan "Holmberg 15A" elliptik qalaktikada yerləşir.**

Bu, onun ətrafında dövr edən ulduzlara görə tapılmış ən böyük qara dəlikdir. "Deyerler.org" bildirir ki, obyektin mərkəzindən üfüq xəttinə qədər məsafə Günəşdən Yer kürəsinə qədər olan məsafə ölçüsündədir. Modelləşdirmənin nəticələrinə əsasən, iki azyaşlı qalaktikanın toqquşması nəticəsində qara dəlik əmələ gəlmişdir.

**Qeyd edək ki, bir müddət öncə astronomlar, ulduz sönməsindən yarana bilən, növü müəyyən edilməyən kosmik obyektlər aşkar etmişdir. Göy cisminin tarazlığı bərpa etməyə çalışan, parıltısını tez-tez dəyişən balaca və isti ulduzdan ibarət olduğu qeyd edilir.**

*Hazırladı: Ramil QULİYEV*

Baş redaktor: Aydın Quliyev

Baş redaktorun müavini: Tahir Tağıyev

Redaksiyanın ünvanı: Bakı şəhəri, Mətbuat pr. 529-cu məhəllə, 6-cı mərtəbə

Tel-faks: 510-87-40; 510-87-38; 510-87-39

e-mail: azer22@mail.ru

Reyestr № 0106-P219-45846

Qəzet həftədə 5 dəfə çıxır. (Bazar və bazar ertəsindən başqa). «BZ»-də çap olunur.

Sifariş: №2514 Tiraj: 3050

Qəzetdə «Olaylar» və «Trend» informasiya agentliklərinin materiallarından istifadə edilir.

Reklam mətninə görə qəzet məsuliyyət daşımır.